

# «İSMAYILIN KÖLGƏSİNƏ GƏLİN»

*(İsmayıl Qarayev – 90)*



# *İsmayıl Qarayev – 90*

***Azərbaycan KP MK təbliğat və***
***təşviqat şöbəsinin müdirinə.***

*Mən məhkəmənin hökmü ilə çap hüququndan mərhum edilməmişəm. Bəs nə üçün mənim əsərlərim işıq üzü görməsin? Əgər mənim əsərlərimin nəşri qeyri-mümkünsə, mən belə azadlığı istəmirəm!...*

**Ismayıl Qarayev**

Həbsxana əslində mahiyyət etibarilə vaxtın artıqlaması ilə ödüllənmiş dar mühitdir. XV əsrdə yaşamış ingilis yazıçısı Tomas Melori 8 romandan ibarət «Kral Artur və onun igid cəngavərləri» haqqında kitabını, Migel de Servantes «Lamançlı Don Kixotun sərgüzəştləri»nin ilk bölümünü, Oskar Uayld «Həbsxana etirafı»nı, Yulis Fuçik «Dar ağacında müsahibə», F.Dostoyevski «Ölü evdən qeydlər»ni, O.Henri on dörd hekayəsini, Nazim Hikmət məşhur «İnsan mənzərələri» epopeyasını, «Həbsxanadan məktublar» silsiləsini, «Məhəbbət əfsanəsi», «Yusif və Züleyxa» pyeslərini və s. əsərlərini həbsxanada yazmışdır. Xəlil Rza Lefortovo həbsxanasında «Lefortovo gündəliyini», 200-dən çox, şeir, poema və məktubunu qələmə almışdı...

Özünəməxsus dünyası olan bu yazıçılar əlindəki qələmi heç vaxt yerə qoymayan, sözün qüdrətiylə milyonlara mənəvi qida verən, əsrindən, ilindən, dövründən asılı olmayaraq tale yolları həbsxana deyilən bir mühitdə kəsişən və hər biri heç kimə bənzənməyən şəxsiyyətlərdir. Bu qəribə taleli şəxsiyyətlərin sırasına yazılan bir ad da yada düşür... İsmayıl Abuzər oğlu Qarayev... Yazıçı Anarın «Gecə düşüncələri» əsərindəki bir ifadə ilə desək, «Yazıçıya verilən ən böyük cəza əsərlərinin nəşr olunmamasıdır, yəni yaradıcılğına ölüm hökmüdür».

1976-ci ildə 8 il azadlıqdan məhrum edilən, «Düzlük düzdə qoydu məni» deyən İ.Qarayevə «Gənclık» nəşriyyatının tematik planına daxıl edilmiş «Damcılar» kitabının nəşrinə qadağan qoyulması da ən böyük cəza idi. Bununla belə, 8 il məhbəs həyatında yazıb yaratmaq iradəsi onu tərk etmədi, yaratdığı əsərlərin nə vaxtsa işıq üzü görəcəyinə ümid bəslədi. Yazmaq İsmayıl Qarayev üçün yaşamaq demək idi... Yaza-yaza

əsərlərinin çap oluacağına, gələcək nəsillərə gərək olacağına ümid bəsləyirdi. O, ümidində yanılmamışdı...

İsmayıl Abuzər oğlu Qarayev 1927-ci il dekabr ayının 5-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndində anadan olmuşdur. Natamam orta təhsılını kənddə alan Ismayıl Qarayev Gəncə Tibb Texnikumu bitirdikdən sonra 1946-1949-cu illərdə Yevlax, Samux və Goranboy rayon xəstəxanalarında çalışmışdır. Yazmaq, yaratmaq həvəsiylə Bakıya üz tutan gənc yazıçı «Xəzər-neft» idarəsində işə düzəlir. İlk qələm nümunələrini həmin təşkilatın orqanı olan «Xəzər kommunist» qəzetində dərc etdirir. 1963-1966-cı illərdə doğma kəndinə qayıdıb müəllımlık etməyə başlayır. Nəhayət, təhsil almaq, biliyini artırmaq həvəsi onu indiki Bakı Dövlət Unıversitetinin filologiya fakültəsinə gətirib çıxarır.

Ali təhsilli İsmayıl Qarayev «Azərbaycan gəncləri» qəzetində ədəbi işçi, 1966-ci ildə «Gənclik» nəşriyyatında redaktor, baş redaktor kimi (1966-1977) çalışır. Qılman İlkin, Əlviyyə Babayeva, İlyas Tapdıq, Əzizə Əhmədova kimi sənətkarların əhatəsinə düşən gənc yazıçı burada böyük bir yaradıcılıq məktəbi keçir. Bu illərdə yazıçı «Gənclik» nəşriyyatında işıq üzü görmüş bir sıra kitabların müəllıflərin, o cümlədən, İ.Əfəndiyev, S.Rəhimov, Ə.Vəliyev, C.Əlibəyli, H.Abbaszadə, B.Bayramov, Ə.Əylısli, İ.Şıxlı, Ə.Babayeva, Q.İsmayılov, Ə.Hacızadə və bir çox dıgər yazıçıların əsərlərinin redaktoru olur.

İ.Qarayevin bu illərdəki redaktorluq fəaliyyətindən söhbət açan Xalq yazıçısı Süleyman Rəhımov qeyd edirdi ki, «İsmayıl Qarayevin redaktoru olduğu əsərlər nöqsansız çap olunur. İ.Qarayevin taleyi ədəbiyyatla, yazıçılqla bağlıdır. Mən

İ.Qarayevi Yazıçılar İttifaqına üzvlüyünə tövsiyə edib, zəmanət vermişəm».

Yaradıcılığının ilk illərində İ.Qarayevin «Azərbaycan» və «Pioner» jurnallarında, «Ədəbiyyat və İncəsənət», «Azərbaycan gəncləri», «Sovet kəndi» və s. qəzetlərdə «Görəsən gələcəkmi?», «O məni sevindirdi», «Qardaş», «Ömrün bir günü», «Sınaq», «Siz kimə gülürsünüz?», «Şübhə», «Nəvəmə sözüm var» və s. adlı ilk əsərləri işıq üzü görmüşdür.

1960-1970-ci illərdə oxucular İ.Qarayevin «O və mənim anam» (1964), «Aydınlıq» (1968), «Tərtərin mahnıları» (1969), «Dəniz və dənizçi zarafatları» povastləri (1970), «Ömür» ilk böyük həcimli romanı (1971), «Əməyin bəhrəsi» sənədlı oçerki (1972), «Gecə keçir» romanı (1973) ilə tanış olmuşlar.

Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Komutəsində də çalışan yazıçının bir çox ədəbi verlişlərin ssenari müəllıfı olmuş, verlişlər aparmış, imkan düşdükcə öz əsərlərini efirdə səsləndirmişdir.

Yazıçının poetik düşüncələri müxtəlif illərdə qələmə aldığı bir sıra şeir və poemalarda da öz əksini tapmışdır. Onun «Dünya», «İnsan var hələ!», «Yaxınların uzaq səsi», «Sabah dərs günüdür», «Bilinməz», «Nə deylm?», «Mənim balalarım», «Səbr», «Düşünməyim» və s. əsərləri poetik qələmin məharətindən xəbər verən bədii nümunələrdir. Ədəbiyyatşünas alim, yazıçı Aqşin Babayev yazır ki, «onun haqqında televiziya verlişi hazırlanarkən arxivinə baxdım. Sən demə, İ.Qarayev gözəl şerlər də yazırmış, halbuki, bu haqda mənə heç bir söz deməmişdi».

Nüsrət Kəsəmənli: «Yaş fərqinə baxmayaraq yaxın dost idik. Mənimlə, təkcə mənimlə yox, ümumiyyətlə, gənclərlə yaxından maraqlanırdı. Poeziyadan danışanda, elə düşünürdüm

ki, o, püxtələşmiş şairdir. «Dğlar dağımdır mənim» kitabındakı şeirlərini gördükdən sonra bildim ki, mən yanılmamışam, o həm də gözəl şairdir».

Şeirlərinin çox az bir qismini mətbuatda dərc edildiyi üçün İsmayı Qarayevin poetik dünyası hələ lazımı səviyyədə işıqlandırılmamış qalır:

*Bənöfşəsiz yaz olarmış, mənim balam,*
*Mehri-ülfət az olarmış, mənim balam.*
*Zirvə dağlar dağılanda, təpələrin*
*Keyfi yaman saz olarmış, mənim balam.*

Poemalarında da el sözündən, el gözündən bəhrələnən yazıçı poetik düzümlə düşüncələrini belə təqdim edir: Bu mənada poemasından gətirdiyimiz nümunələr maraqlıdır:

*Düz deyəndə, düz əyəndə əyilməyir canın tacı,*
*Zirvələrə gedən yollar düzdən alır başlanğıcı.*
*Qorxuludur uçqunların, yarğanların daş bəyliyi,*
*İldırım da vurmur düzü, ğöydə çapır əyriliyi.*

*(«Getmə oğul! »)*

İsmayıl Qarayev tərcüməçilik fəaliyyyəti ilə də məşğul olmuş, görkəmli rus yazıçısı və ədəbiyyatşünası V.B.Şklovs-kinin məşhur «Marko Polo» romanını Rober Batullinin «Fasil və Vasılə» hekayəsini dilimizə tərcümə etmişdir. «Kirpi» satirik jurnalıda yazıçının dövrün eybəcərliklərindən bəhs edən müxtəlif xarakterli yazıları dərc olunmuşdur.

1985-ci ildə həbsdən azad olunan mənəvi repressiyaya məruz qalan yazıçı tanıdığı insanların da məlum səbəblər üzündən onunla görüşdən qaçması səbəbiylə və ailəni dolandırmaq ehtiyacına görə kəndə qayıdıb sovxozda fəhlə kimi işləməyə məcbur qalır. Aqşin Babayev yazırdı: «Həbsxanadan sonra dəyişmşdi, saçları ağarmışdı, qocalmışdı. Əvvəlki şən,

şux, cavan İsmayıldan əsər-əlamət qalmamışdı. Sözü-söhbəti övladları idi. Söhbət əsnasında: «Dolanmaq olmur. Çörəyim daşdan çıxır, qardaşım... Gecələr də işləməyə hazıram. Təki məni işə qəbul etsinlər, təki mənim yazılarımı çap etsinlər» - deyirdi...

İsmayıl Qarayev Mikayıl Müşfiq, Əhməd Cavad və onlarla başqa repressiya olunmuş yazıçılarımız kimi sovet təhlükəsizlik orqanlarının gülləsinə tuş gəlməmişdi. Lakin onu «aldığı mənəvi güllə yaraları» Azərbaycan KP MK-ə cəsarətlə müraciət etməsinə səbəb olmuşdu:

«İslah - əmək düşərgələrində də yaradıcılıqdan ayrılmamışam, tərbiyəvi əhəmiyyətə malik, sağlam ideyalı yeni əsərlər üzərində işləmişəm. İndi hansı redaksiyaya üz tuturamsa, maneçiliyə rast gəlirəm... Mən məhkəmənin hökmü ilə çap hüququndan məhrum edilməmişəm. Bəs nə üçün mənim əsərlərim işıq üzü görməsin? Həbsə alınmağımla əlaqədar olaraq, «Gənclik» nəşriyyatının temtik planına daxil olan «Damcılar» kitabımın da çapı dayandırıldı. Sizdən həmin kitabımın tematik planda yenidən bərpası və əsərlərimin çap olunması üçün mənə kömək etməyinizi xahiş edirəm. Əgər əsərlərimin nəşri qeyri-mümkünsə, mən belə azadlığı istəmirəm, ya əmr edin məni yenidən həbsə alsınlar və ömrümün axırına qədər orada saxlasınlar, ya da mən sovet vətəndaşlığından imtina etməyə məcburam... 1985-ci il...»

İsmayıl Qarayev haqqında yazıçının qələm dostu Tofiq Mahmud öz xatirələrində yazırdı: «Bütün varlığı ilə ədəbiyyata - sənətə bağlı bir insan! Çap olunacağına ümidi olmaya-olmaya yeni əsər başlamaq, bunu bitirib sonra hər dəfə yenisini yazmaq... Buna böyük iradə lazımdır. Belə iradəyə malik olmaq

asan deyil... «Azərbaycan» jurnalı redaksiyasındakı son görüşümüzü xatırlayıram. Ürəyi qəmlə, qüssəylə dolu olan bu adam bu barədə bir kəlmə belə dilinə gətirmir, şikayətlənmir, bəlkədə bunları büruzə verməmək üçün çıxıb gedir... Bu nəciblik, böyüklük deyilmi?

İctimai-siyasi həyatda 1985-ci ildə başlanğıc götürən köklü dəyişikliklər özü ilə çoxdan gözlənilən söz azadlığını da gətirmişdi. «Aşkarlıq», «yenidənqurma» onun ilk nailiyyətləri idi. Ədəbiyyatda da bu dəyişiklirlərin bədii-intellektual təcəssümünün qismən də olsa baş tutması təbii idi. Lakin acı həqiqətlərin, şirin xəyalların xülyalara çevrilməsini İ.Qarayevin məhbəs həyatından yazdığı 1984-cü ildə tamamladığı «Sxodka» romanında aydın görürük. Cəsarət pərdəsini qaldırıb «həyatın dibini» geniş oxucu kütləsinə göstərən «Sxodka» romanı yalnız 2000-ci ildə işıq üzü gördü. Yazıçı «bura mərdi qova-qova namərd edən bir dünyadır, bura heç kəsi islah edə bilməz» həqiqətini uca səslə deyir. İsmayıl Qarayev həqiqəti pıçıltı ilə deyənlərdən deyildi...

İ.Qarayevin yaxın dostu, yazıçı – publisist Elbrus Şahmar qeyd edir ki, SSRİ adlanan nəhəng həbsxana onun kimi demokratik fikirli, qorxmaz yazarların qələmi ilə çoxdan dağılmışdı... Təəssüf ki, İsmayıl Qarayev Sovet imperiyasının çökdüyü günü görmədi...

Yazıçı ilə daim əlaqə saxlayan, əsərlərinin nəşrinə nail olmağa çalışan Aqşin Babayev həbsdən sonra ilk hekayəsi efirə gedən yazıçının mənəvi iztirablarını belə qələmə alırdı: «...çox gözəl hekayə idi və gözəl də qarşılandı. Yuxarıların heç bir iradı olmadı. Səhəri gün sevincini sözlə ifadə edə bilməyən İsmayılın gözləri dolmuşdu...». Artıq yatağa düşən yazıçının qələmi səngimir, yazılarını vaxtaşırı efirə göndərirdi. O dövrdə

Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində çalışan professor Aqşin Babayev bir gün yazılarının arasının kəsildiyini görərək bir əməkdaşı Goranboya göndərir. Və həmin gün, 11 oktyabr 1989-cu il İsmayılın yaşadığı Tapqaraqoyunlu kəndində dəfn olması xəbəriylə sarsılır.

Rəfiq Zəka Xəndan İ.Qarayev haqqında xatirəsində yazır ki, «ən sevimli, səmimi dostlarımdan biridir... 20 il öncə Səttar Bəhlulzadənin dostu Əbülağa Kazimi rəssama nar ağacı bağışlamışdı. Xəlil Rza ilə onu bağa gətirdik, bu zaman İsmayıl da gəlib çıxdı. Öz əli ilə bu ağacı əkdi. İsmayıl dünyasını dəyişəndən sonra Xəlil Rza həmişə deyərdi: İsmayılın kölgəsinə gəlin».

Anarın «Cecə düşüncələri»ndəki daha bir fikrə qayıdaq: «Yazıçı öləndə onun uşaqları yox, kitabları yetim qalır. Uşaqlar onsuz da böyüyür, onların öz uşaqları dünyaya gəlir, yaşlı ata və anaları yetim saymaq nəsə birtəhər çıxır. Kitablar böyümürlər, onlar valideyn – yaradıcının ölümündən sonra kimsəsiz qalırlar. Aralarında ən dözümlüləri, necə deyərlər, maneəni yarır və yaşamaq haqqı qazanırlar. Ən davamsızların payına unudulmaq düşür». Ancaq İsmayıl Qarayevin əsərləri unudulmadı, yaşamaq haqqı qazandı.

Dünyasını dəyişdikdən sonra yazıçı bəraət qazanmış, Azərbaycan Yazıçılar Birliyı üzvlüyünə bərpa olunmuşdur. 1996-cı il iyun ayının 10-da, artıq ədəbi aləmdə kifayət qədər tanınmış şəxsiyyətlər olan Anar, Yusif Səmədoğlu, Cabir Novruz, Sabir Rüstəmxanlı, Çingiz Abdullayev, Fikrət Qoca, Yaşar Qarayev, Qabil və Fikrət Sadığın iştirakı ilə Yazıçılar Birliyi katibliyinin iclası keçirildi. İclasda digər məsələlərlə yanaşı, yazıçı İsmayıl Qarayev barədə vaxtilə yol verilmiş ədalətsiz münasibətlə əlaqədar ədibin ailəsinin Yazıçılar

Birliyinə müraciətinə baxıldı və mərhum ədibin Birliyin üzvlüyünə bərpa olunması haqda qərar qəbul edildi.

90-cı illərdən sonra yazıçının bir sıra əsərləri «Azərbaycan», «Ulduz», «Gənclık», «Arzu» jurnallarında, «Azərbaycan gəncləri», «Kriminal», «525-ci qəzet», «Səhifələr», «Ədalət» və s. qəzetlərdə dərc olunaraq oxuculara çatdırılmışdır.

1996-cı ildən yazıçının adını daşıyan «İsmayıl» Nəşriyyat - Poliqrafiya Mərkəzi, «QAPP-Polıqraf» və «Çinar-Çap» müəssisələri İ.Qarayevin oğlu - Qoşqar Qarayevin, qızı Vəsimə Qarayeva rəhbərliyi altında fəaliyyət göstərdi. Nəşriyyat-poliqrafiya sahəsində gözəl, təcrübəli, kreativ ideyalı mütəxəssis olan mərhum Qoşqar Qarayev öz övladlıq borcunu namusla yerinə yetirərək, atasının vaxtilə yazdığı və işıq üzü görməmiş əsərlərini çap etdirdi.

Ədib böyük bir ədəbi irs qoyub getmişdir - 10- dan çox roman, 50-ə qədər povest, 200-ə qədər hekayə, novella, şeir və poemalar, pyesləri... Və bu gün ədəbi tənqidimizin bu irsə sahib çıxmalıdır. Hələ illər öncə Qılman İlkinin dediyi kimi: «Üst-üstə qalanmış bu dəftərlərin içinə sığınmış əsərlər onun sərvətidir, ədəbi irsidir, diqqətlə oxumağa, saf –çürük etməyə necə böyük ehtiyac vardır».

«Azərbaycan» jurnalının 1963-cü il 6-ci sayında yazıçının qadın mövzusunda yazdığı ilk əsərlərindən biri – «Anamın qatili» hekayəsidir. Hekayənin digər bir adı da «Unutduqlarım»dır. Hekayə həm oxucuların, həm də tənqidçilərin diqqət və marağına səbəb olmuşdur. Tofiq Mahnud «Ulduz hər zaman parıldamır» məqaləsində yazırdı: «Hər şeydən əvvəl yazıçının dili, sonra hadisələr, bu hadisələrin canlı təsvirləri, dramatik situasiyalar, həyatilik və təbilik bu hekayənin qüvvətli çıxmasına səbəb olmuşdur. Hamı bu hekayəni

tərifləyirdi. O zamanlar jurnalın baş redaktoru olan Qılman hekayə ilə əlaqədar «güclü əsərdir» demişdi». Əvvəlcə «Unutduqlarım» adı ilə dərc olunmuş həmin hekayəni, sonralar yazıçı «O və mənim anam» adlı povest kimi oxuculara təqdim edildi.

Əsər, müasir nəsrimizin gözəl nümunəsi kimi ədəbi tənqidin nəzərindən yayınmadı. Müasir ədəbiyyatşünaslığımızın tanınmış nümayəndələri, Bakı Dövlət Universitetinin professorları, filologiya elmləri doktorları Xalid Əlimirzəyev və Cəlal Abdullayev əsərə yüksək qiymət verərək qeyd edirlər ki: «...nasirlər...ədəbiyyata inadlı axtarışlar, dərin həyatı müşahidə, zəngin bilik tələb edən ciddi yaradıcılıq prosesi kimi baxır və öz əsərlərində müasir oxucunun tələblərinə mümkün qədər cavab verməyə çalışırlar. Bu cəhətdən İsmayıl Qarayevin «O və mənim anam» kimi orjinal dil-üslub, maraqlı məzmun və səmimi təhkiyə tərzinə malik povesti ayrıca qeyd olunmalıdır».

Əsərin əsas məziyyəti ana obrazı ilə əlaqədardır. Müharibə illərinin bütün ağrılarını çiyinlərində daşıyan minlərlə baqa qadınlar kimi Məryəm də iki körpə balası ilə hər cür əziyyətlərə qatlaşan, müharibə cəbhələrində döyüşən ata və oğullarımızı əvəz edən, öz ismət və namusu uğrunda vuruşan, yaranmış vəziyyətdən alçaq məqsədləri üçün istifadə etməyə çalışan briqadir Seyfəlinin çirkin niyyətlərinə qarşı mübarizə aparsa da, vəfasızlıqda suçlanan, əziyyətlər burulğanında həlak olan ana obrazı kimi gözlərimiz önündə yüksəlir.

Povestin epiloqu maraqlı olduğu kimi, proloqu da çox təsirlidir: «Anam can verirdi. Onun donuq çəp nəzərləri tavana zillənmişdi. Biz anamın üstünə atıldıq. Anam bizi qucaqlamaq,

öpmək istədi. Lakin vida anlarında onun qolları qalxmadı. Anamın kipriklərində yaş titrədi, o hönkürdü...».

Məryəmə qarşı ədalətsizlik etmiş həyat yoldaşı Cavadın peşimançılığı: «... vicdan əzabına tutulmuş insanın mehribanlığına bənzəmirdi. Bu mülayimliyin, yumşaqlığın arxasında bir iztirab, bir peşmançılıq vardı... Birdən özüm də bilmirəm necə oldusa, atamı qucaqlayıb ağladım.

- Ağlama, ağlama... Mərdimazarın... - Atamın gözləri dolmuşdu...»

Tənqidçilər qeyd edirlər ki, əsərdən çıxan bədii nəticə güclüdür: oxucu burada top-tüfəng, güllə səsi eşitməsə də, hiss edir ki, bütün faciələrin səbəbi mənfur müharıbədir...

Məhz bu mənfur müharibənin davamı olaraq, qələbə sevinci yaransa da, Məryəmin ailəsindəki müharibə bitmək bilmir. Məryəm öz ismət və mənliyi uğrunda, hər şeydən şübhələnən qaynanasına, yaranmış vəziyyətdən alçaq məqsədləri üçün istifadə etmək istəyən, namus və vicdanını itirmiş, riyakar, xəbis bir şəxs olan briqadir Seyfəlinin çirkin niyyətlərinə qarşı vuruşmalı, hətta axırıncını öldürməli olur. Məryəm qaynanasının razılığı olmadan Cavadla ailə həyatı qurduğu üçün «Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar», «Əriş yol verməsə, arğac keçməz», «Ərgən oğlansan, dul arvadın nəyinə bənd olmusan, başına tərs dəyirman açacaq, nə coxdur kəndimizdə kişi nəfəsi dəyməmiş qızlar» və s. sözlərlə oğlunun gününü qara edən qaynananın təhqirlərinə dözməli olur. Əsərdə («Unutduqlarım») müharıbə dövrünün Azərbaycan kəndinə aid təsvirindəki realizm, təravət və inandırıcılıq qüvvəsindən güman etmək olur ki, yazıçı o dövrü şəxsən müşahidə etmiş, bu hələ azdır, həmin hadisələrdən bir qismini bəlkə də özü yaşamışdır».

«Unutduqlarım» əsərinə qiymət verən görkəmli ədibimiz Qasım Qasımzadənin ifadəsi ilə desək, «xalqın dilində, xalqın təfəkküründə, mənəviyyatında yaxşı nə varsa, bədii ədəbiyyata gətirməyə həvəslə girişən gələcək nasir adət-ənənələrimizə, ailə-məişət dəyərlərimizə bədii həyat verir». Bu istedadlı yazıçının ilk yaradıcılıq uğuru idi.

M.Şoloxovun «İnsanın taleyi» əsərində Sokolovun müharibə cəbhələrində kimsəsiz qalmış, ev-eşiyi dağılmış, ata-anası həlak olmuş oğlana atalıq etməsinə bənzər süjet xətti İ.Qarayevin «Ana» hekayəsində də özünü büruzə verir. Müharibə zamanı valideynləri həlak olmuş, evləri dağılmış başqa millətlərdən olan yüzlərlə uşaq Azərbaycana gətirilmişdir. Tanya da belə uşaqlardan biridir. O, azərbaycanlı bir qadının mehriban qoynuna sığınır. Azərbaycanlı qadın ona öz doğma balası kimi nəvazış göstərir, «bismillah» deyə-deyə yuxusuna keşik çəkir, onu qəribsəməyə qoymur. Yazıçı təsvir edir ki, azərbaycanlı qadın kəndə gətirilmiş rus uşaqlarından üçünü axşam evinə gətirir ki, onlar Tanyanın dilində danışsınlar, heç olmasa, beş-altı axşam həmin evdə gecələsinlər. Hər şeyə asanlıqla yovuşmayan Tanya azərbaycanlı qadının ana məhəbətinin istisində qızınır, sinəsində ikinci övladı kimi özünə doğma sığınacaq tapır. Ana «öz budağından qopan bu sarı yarpağa burada ağac tapmaq, onu burada göyərtmək istəyirdi». Saf analıq duyğuları ilə çulğalanmış və qərib körpəyə ürəyinin hərarətini verən ananın, millətindən, dilindən asılı olmayaraq göstərdiyi məhəbbət təbidir, canlıdır. «Ana» hekayəsində müharibə zamanı başqa millətdən olan uşaqları öz qanadı altına alan azərbaycanlı qadının simasında analıq

məfhumu bəşəri dəyər səviyyəsinə yüksəlir. Hekayənin mövzusu təzəomasa da, təsvir oriyinaldır. Qərib körpəyə qəlbinin hərarətini verən ananın obrazı təbii və canlıdır.

«Ana xəyalı» hekayəsi də maraqlı bir mövzuya həsr olunmuşdur. On yaşlı oğlunu itirmiş bir ananın iztirabları və həyacanları hekayədə ön plana çəkilir. Yenidən övlad anası olmaq qorxusu hamilə ananı çox düşündürür. Lakin o, qorxur ki, dünyaya gələcək ikinci uşağının da taleyi birinciyə oxşayacaq, onun da «dili iti», «dindirməsən dinən», «öz sözünü sənin ortandan güllə kimi keçirən», hər şeyi öz mülahizələri ilə «həll edən» ikinci övladı da bu müdhiş ab-havasında nə özünə, nə də anasına xoşbəxtlık gətirə bilməyəcək. Ana qorxur övladı biləcək ki, «dağın da dağı var», «zirvənin də zirvəsi», «çaylar arana axır». Qorxurdu ki, «hər fikir dolaşığını öz ağlı ilə açacaq», «əyriliyi acı nəticə, düzlüyü şirin səbəb sanacaq» bu uşaq, «adamları tez tanıyacaq», «yavaş yerişin hara getdiyini», «vaxtsız qaçışın harda qutardığını» biləcək bu uşaq. «Hər şeyə öz sözü, öz mülahizəsi olmaq bacarığı» məhv edəcək bu uşağı!

Yazıçının keçən əsrin 70-ci illərində qələmə aldığı «Qəlblər görünür», «Onun özü və qəlbi», «Ata laylası», «Boş qalmış yuva» və s. əsərlərində real həyat mənzərələri, aılə - məişət problemləri, etnoqrafik yozumlar, el deyimləri maraqlı təhkiyə yolu ilə təqdim olunur.

«Başın ucalığı» hekayəsində yazıçı insan mənəviyyatı, valideyn - övlad münasibətləri, ailə - məişət məsələlərindən söhbət açır: «Kəndimizdə doktor Kamalı işaqdan – böyüyə hamı tanıyır. Hər bir adam səbəbsiz yerə tanınmaz. Oğul gərək ya xeyirdə tanınsın, ya şərdə. Adamın adı ya pislikdə çəkilə, ya yaxşılıqda». Kənddə feldşer-mama məntəqəsində müdir

vəzifəsində işləyən Kamlla oxucuları tanış etdikdən sonra yazıçı hekayə qəhrəmanının canlı portretini yaradır: «Onun hinduşqa boğazı kimi qırmızı uzun burnu, tısbağa boynu kimi palıd rəngli gərəndiş boynu, ətli tüksüz qaşı, quyunun dibindən işıldayan xırda gözləri, enli sallaq sifəti, gödək yumru sallaq çənəsi, fətir kimi yastı yekə qulaqları quruluşuna görə tərifəlayiqdir. Pencəyinin yaxası həmişə açıq olar. Köynəyinin sinəsində donmuş yağ damcılarını, çəhrayı çaxır ləkələrini və süzmə qatıq yerlərini müəyyən etmək mümkündür. Gödək boz şalvarının dizi çıxa –çıxa addımladdıqca dabanları içəri doğru əyilmiş ayaqqabı, az qalır ki, ayağından çıxıb yerində qalsın».

Kamal küçədə rast gəldiyi, yeddinci sinifi bitirdikdən sonra heç yerdə işləməyən, şəhərbəşər gəzib kef çəkən, zöhrəvi xəstəliyə tutulmuş bir qızla evləndikdən sonra daha da «məşhurlaşır». Böyük tərbiyəvi əhəmiyyətə malik olan hekayə maraqlı süjet xəttinə, sadə məzmuna, şirin təhkiyəsinə görə diqqəti cəlb edir.

Yazıçı «Baş ucalığı»nı gənclərə başa saldıqdan sonra hekayəni belə bitirir: «Düşüncəli surətdə ailə qurmaq, şərəfə nail olmaq, ata – anaya can yandırmaq, onları göz üstə saxlamaq başın ucalığıdır».

«Bir gecə» hekayəsi dənizçilərin həyatını yaxşı bilən yazıçı qələminin məhsuludur. Müəllif şıltaq dalğalarla üz-üzə gələn dənizçilərin ağır, lakin maraqlı həyatını, dalğıcların, batmış gəmilərin, suda boğulmuş insanların meyitlərinin tapılması və çıxarılması kimi fəaliyyətlərini bədii lövhələrlə təsvir edir. Əsərdə gəmi kapitanı Səlim, dalğıc Xəlil əmi, dənizçi Ağaəli kimi obrazlar diqqəti cəlb edir.Yazıçı dənizçilərin həyatından, dənizin dibindən, orada yaşayan canlılardan, yosun «meşələrindən» maraqlı səhifələri oxuculara təqdim edir. Sanki

dənizin dibinə, oğlunun meyitini axtarmaq üçün Xəlil əmi deyil, yazıçı özü düşür, dənizin dibi çox canlı şəkildə təsvir edilir. Əsər nikbin bir sonluqla tamamlanır: Dənizin dibindən «əliboş» qayıdan Xəlil əmiyə radioqramla xəbər verirlər kı, oğlu sağ-salamatdır, o Türkmənistan sahillərində tapılıb.

«Əməyin bəhrəsi» oçerki də bu illərdə yazılmış və ilk dəfə 1969-cu ildə «Azərbaycan gəncləri» qəzetində «Şam kəndi, Şərqiyə bacım» adı ilə dərc olunmuşdur. Oçerk Sosialist Əməyi Qəhrəmanı Şərqiyə Vəliyevaya həsr edilmişdir. 1972-ci ildə isə həmin oçerk «Əməyin bəhrəsi» adı ilə «Azərnəşr» tərəfindən kitabça şəklində buraxılmışdır. Yazıçı üzünü əsərin qəhrəmanına tutaraq oçerki belə başlayir:

«... Meh meşələrə daraq çəkir, yarpaqlar bunu pıçıldayır. Hər budaq bir saz, hər ağac bir ozan olub sənin bənzətmələrini oxuyur. Keçidlərdə körpülərlə çitənən, aşırımlarda qabırğalanan, yelli-selli gədiklərdə mamırlı daşlarla düyməlænən uçqun altlı, qopqun üstlü yollarda sənin o günlərini gördüm, mənim bacım! Sən bu günün əsrarlı sübhündə, aydınlığında qaldın, mən dünənin qaranlığına qayıtdım...»

Və yaxud: «Çiçəklərin ətrini, buludların zirvələrdəki çətrini, yarpaqların pıçıltısını, bulaqların saflığını, duruluğunu, çayların-bu yorulmaz müğənnilərin laylalarını» ürəyində gəzdirən, onları lirik bir axarda təsvir edib, öz qəhrəmanlarına, doğma yurdunda çalışıb yaradan insanlara ərməğan edən yazıçının təhkiyəsi o qədər şirin, axıcı və gözəldir ki, heyran olmaya bilmirsən.

«... İ.Qarayev xarakterlər, ən əvvəl də portretlər ustasıdır. Bizcə gələcək tədqiqatçıları onu hər şeydən öncə bu baxımdan təhlil etməlidirlər. Ümumiyyətlə ısə, İ.Qarayev söz yaradıcısıdır, əsərlərində xalq dilinin saflığına, büllurluğuna, yaşarlığına

söykənən neologizmlər bol – boldur... Bu cür obrazlar və hadisələr ən çox gürcü nəsri, ilk növbədə, Nodar Dumbadze kimi yazıçılar üçün xarakterikdir. Bu mənada gürcü nəsrinin yumoru dillə deyilir. İ.Qarayev nəsrdə Azərbaycan yumoru yaradır (bu yumor elə - belə dodaqqaçdı deyil, hər addımda adamın qaşını çatıb düşündürən yumordur), özü də bu zaman ənənəyə - Molla Nəsrəddin fəlsəfəsinə söykənir». (Elbrus Şahmar – Z.Ə.).

İsamyıl Qarayevin nəsrində etnoqrafik mənzərələrin bədii təsvirlərinin zənginliyi, milli koloriti diqqəti cəlb edir. Adi bir kəndli qadının geyimi də bütün ştrixləri ilə bədii etnoqrafik mənzərələr yaradır:

«Qara kəşmir tumanının ətəkləri yer süpürən, qırmızı məxmər kürdülü, üzünü bürüdüyü ağ yelənli qara kəlağayının bir ucu ılə qolunun üstündə gətirdiyi bağlancını gündən qoruyan» («İstək» hekayəsi) və yaxud «Evlərinin qabağında bir dərəçə vardı. Nehrə çatmalarını o dərəçənin başında qurmuşdular, iri-iri qazanlara rahat yerlər düzəltmişdilər. Nehrələr çalxandıqca o qazanlara boşaldılır, üzünün yağı yığılandan sonra ayranları dərəcəyə axıdırdılar. Dərəçədə bircə ot da bitmirdi, qaratikanlar, qaramuxlar da qurumuşdular, dərəçənin dəyirman novuna oxşar dibi ayran axmaqdan dümağ ağarmışdı...» («Qanlı məktub») və s.

İsmayıl Qarayevin əsərləri el sözündən, el gözündən mayalandığı kimi, el bayatılarından da yan keçməyib. «Sözü mum kimi işlədən güclü nasirimiz, xalq həyatını dərindən duyub təsvir edən» (İlyas Tapdıq - Z.Ə.) bu söz sərrafımızın, sənət fədaimizin əsərləri xalq deyimləri, folklor nümunələri, bugünkü gəncliyə örnək ola biləcək babalarımızın, nənələrimizin gözəl adətləri, davranış qaydaları, müdriklik və kamillik nümunələri ilə zəngindir. «El adət-ənənələri, kişi qeyrəti, namusu, cəsarəti,

qadın ləyaqəti, nəzakəti, əsil insanıq, milli kaloritlli mükalimələr, sözgəlişi deyilmiş adicə bir kəlamın belə təsadüfi işlənməməsi yazıçının yaradıcılığının başlıca məziyyətlərindəndir» (Nüşabə Məmmədli - Z.Ə). Eyni zamanda, «həddindən artıq həssas və diqqətli müşahidə qabiliyyətinin, üstəgəl bu müşahidəni həddindən artıq incəlik və şairanəliklə qələmə almaq bacarığı»nın (Nərgiz Cabbarlı – Z.Ə.) xalq ədəbiyyatının, xalq dilinin simləri üstündə köklənməsi İsmayıl Qarayev nəsrinin ən böyük bədii uğuru sayıla bilər.

Ümumiyyətlə, İ.Qarayevin yaradıcılğı «yazıçı və folklor» mövzusu üçün zəngin material verir. Bunu yazıçının ayrı-ayrı əsərləri boyu tez-tez rast gəldiyimiz bayatılar, nağıllar, əfsanə və rəvayətlərdən parçalar da təsdiq edir.

*Əzizim, quşdu, getdi,*
*İqbalım puçdu, getdi.*
*Ağ günüm qara geyib,*
*Ömrümdən uçdu, getdi.*

*(«Ağ yuxu»)*

-kimi el bayatıları ilə yanaşı yazıçının poetik düzümdə təqdim etdiyi:

*«Məcnun gözü qaldı Leyli qaşında,*
*Yazıq canı yandı eşq ataşında.*
*Çöl quşları yuva saldı başında,*
*Tutulubdu nitqi, qulağı, gözlər.*

*(«Söyüdlər quruyur»)*

Tapılmaz eşqimdə nə hiylə, ləkə,
Kim istər utanıb, xəcalət çəkə.
Belə düşünürəm, məni, o bəlkə,
Sevdiyinə oldu peşiman, gəlmədi».

*(«Dəniz və dənizçi zarafatları»)*

- kimi lirik parçalar onun əsərlərinə poetik rövnəq verir.

«Qoy yağ yağa qarışsın, yarmalar yavan qalsa da olar», «Tökülən su torpaq isladar, uçan dağ dərə doldurar», «Yaxşı at özünə qamçı vurdurmaz» («İtirilmiş tufan»), «Pəhləvannıx cavannıxnan gedir, ağıl ölənəcən var» («Bir kəndin soraqları»), «Hazıra yaraq, bişmişə qonaq», «Kişinin dizi bərk olar, beli bərk olar, kişi yıxılmaz», «Südlü qoyun öz sürüsündən ayrılmaz («Mülahizələr»), «Anası çıxan ağacı balası budaq-budaq gəzər» («Göycək ananın qəşəng oğlu»), «Ağac kökündən su içər, insan ürəkdən» («Yaraşıqsız ev»), «Ağılsız tamahkardan, ağıllı kasıb yaxşıdir» («Əfsanə»), «Gəlini günahı, kişini tamahı çürüdür» («Kölgə»), «Elnən gələn qara gün toy-bayramdır», «Dəvəni xəlbirlə sulamazlar» («Gecə keçir»); «Kəndir incəldiyi yerdən üzülər», «Sirkə öz qabını çatladar» («Aydınlıq»)–kimi şifahi xalq qaynaqlanan deyimlər İ.Qarayevin əsərlərində bol-boldur.

İsmayıl Qarayevin əsərləri demək olar ki, sözün əsil mənasında orijinal və maraqlı şəxsi adlar kolleksiyasıdır. Xacəstə («Ömrün bir ğünü»), Çöhrə («İstək»). Tərgül («Gəlinlər»), Güləsə «Ata həsrəti»), Gülşanə («Gülşanə»), Tərminə («O tanıdı»), Tərcan («Qonşumuz»), Sübhi («Boş qalmış yuva»), Himayə («Yalandır»), Maytavan («Dərə çəkir adamı»), Gülbuta («Onun dərmanı»), Səmimə, Müqtədir, Bəsrək («Saralmış yarpaqlar»), Gülsər («Yeznə gəlsin»), Çıraq («Kəklikotu»), Yahuzər («Özümə oxşayıb»), Mülayim, Məskən («Ana nəsihəti»), Gülsəhər («Onun özü və qəlbi»), Güdmül, Hilmət («Ağ yuxu»), Ural (Göycək ananın qəşəng oğlu»), Gülsəfa («Bir gecənin hekayəti»), Qaytaran («Bir bahar günü»), Sehriyyə («Ətriyyat»), Müstəcəb «Şübhə»), Ahəstə («Bu güllər

ətirlimi?»), İltifat («İntihar»), Əlqəmə («Bahar ötdü»), Səhlik, Əsibə, Məzəkar («Bir görüş, bir ayrılıq»), Gülənbər («Dəniz və dənizçi zarafatları»), Mahtaban, Muğal («Aydınlıq»), Sərvinaz, Çəmən («Ömür») və s.

İ.Qarayevin Azərbaycan təbiətini rəssam gözü, yazıçı sözü ilə, ən xırda, incə detallara qədər bədii zövqlə canlandırdığı təbiət mənzərələrinin füsunkarlığını şərh etməyə ehtiyac qalmır: «Üfüqdən boylanan günəş Murov dağının zirvəsində çətir kimi görünən boz buludların bir tərəfini qızardırdı. Öz zərrin şüalarını zümrüd meşələrə, yaşıl yamaclara, daha sonra kəndin üstünə səpələyirdi. İlıq bahar nəsimi düzlərdə baş-başa vermiş yasəmənlərin, bənövşələrin təravətli ətrini qapı-pəncərələrdən evlərə çiləyirdi. Ağacların al-əlvan çiçəkləri arasında hərdən yaz böcəkləri vızıldayırdı...» («Son çarə»)

İ.Qarayevin hekayələrindən yurdumuzun doğma təbiətinin ətri gəlir, bu ətir həm də yazıçının təbiətə bağlılığı, qayğısı, səmimiyyəti ilə rövnəqlənir:

«Səhər durub görərdik ki dərə şehlənib, elə bilərdik o şehlikdə yerimək, o şehləri tökmək günahdır... gün çıxacaq, bu sözləri, bu gözləri öz telləri ilə götürəcək, göylərdə gəzdirəcək, göylərdə saxlayacaq, payızda, yazda xeyir-bərəkətə döndərib şumluqlara yağdıracaq...» və yaxud «Nazlı anası ilə əvəlik yığmağa germişdi» («Ağ yuxu»); «Göbələknən qulançar ağır xörəkdir, kəkliyini azdırar». («Bir bahar günü); «Gecədən az keçmiş yağıb tez kəsən yağış suyndan Ay ağacların başına hər yarpağın özü boyda gümüşü pullar tutmuş, biçənəklərə mirvari dənələr səpələmişdi. Xırda daşların, iri qayaların parıltısı adamın gözlərini qamaşdırırdı. Çayın suyu öz gecə simfoniyasını axıdaraq enli sarı lent kimi biçənəklərin arasında qıvrılıb gedirdi» («İltifat»)

«Göylərin yanar kürəsi dağların dalına coxdan dığarlansa da, torpağın nəfəsi soyumamışdı, yerin tövşəyi axşamın şərlı toranlığını boğub qaraldır, evlərə, bağlara, çəpər-çalılara yamanıb gələ-gələ yaxınlaşan üfüq dairəsini də bir aydın görümlükdən alıb toyuq korluğuna döndərirdi...» («Bir kəndin soraqları»);

«...gedib bir ovuc kəkotu, qantəpər, qayaçayı qat-qarışığı gətirdi, katibəyə verib dedi ki, qızım, dəmlə, çaydanlı-zadlı apar Süsən xanıma, bunun təhəri belədir, gərək içən kimi süzsün stəkanda gəzdirəndə yel vurur, tamını qaçırır» («Şirzad kişi»).

İsmayıl Qarayevin yardıcılığının daha bir xüsusiyyəti onun qəhrəmanlarının tipologiyası ilə bağlıdır. Yazıçının qəhrəmanlarını «müsbət» və «mənfi» qütblərə bölmək olmur. Bu qəhrəmanlar canlı həyat adamlarıdır. Kimliyindən, vəzifəsindən, yaşam tərzindən asılı olmayaraq, onlar insandır. İnsan isə ideal anlamda qəbul edilə bilməz, o, səhv etməyə, həyat yollarında büdrəməyə. Sapmağa məhkumdur. Yazıçı da insanlari elə həyatda olduqları kimi təsvir edir.

Bir insanın daxilində, eyni vaxtda xeyir də, şər də, işıq da, qaranlıq da, ədalət də, qəddarlıq da yuva sala bilər. Mürəkkəb bir varlıq olan insan bu gün xeyirxah əməlləri ilə fərqlənə, sabah isə qəddarlıqları ilə seçilə bilər. Dinamik bir varlıq olan insanın qiyafəsi tez-tez dəyişilir, onun məzmunu mütəmadi olaraq yeniləşir, çünki bu canlı varlığın daxilində həm mələk həm də şeytan «mürgüləyir». Bu dəyişmələr məişət hadisələri fonunda, ictimai-iqtisadi formasiyaların dəyişməsi fonunda baş verə bilər, psixoloji-fəlsəfi, tarixi və ideoloji sürüşmələr anlamında müxtəlif cür qavranıla bilər. Məhz yazıçı da insanın daxilindəki belə dəyişmələri müxtəlif vəziyyətlərdə təsvir etməyə üstünlük verir.

«Damcılar» – illərlə oxucu üzünə həsrət qalmış bu roman, nəhayət ki, işıq üzü gördü. 1976-ci ıldə müəllifi ilə bərabər «həbs olunmuş bu əsər Dilsuzun redaktəsi ilə 2004-cü ildə çap olundu. Əsərin günahı nə idi? Mövzusu, sovet dövründəki quruculuq, iqtisadi inkişaf məsələlərindən götürülüb. Baş qəhrəman isə atasını itirmiş, anası başqa kişiyə ərə getmiş, sonradan balıqçı babasının həyat məktəbi keçmiş bir yeniyetmə - Səməndərdir. Lakin bütün əsər boyu oxucunun nəzərindən yayınmayan, Ülkər, Əflan, Cəbi və b. surətlərlə müqayəsədə əsərdə az görünən, saflıq, sədaqət, ləyaqət mücəssəməsi olan bir ana var – Səməndərin anası. Yazıçı ana həsrətilə dolu hissləri körpə Səməndərin məsum baxışları vsitəsilə oxucusuna çatdırır: «Anamın bu baxışı mənə bir mahnı oxuyurdu. Bu mahnıda bir dəli çay vardı. Daşlı, qayalı bir dərədən axırdı. Çayın o tayında bir ana, bu tayında bir bala qalmışdı... Bala özünü çaya atanda ana əlləri ilə göylərin ətəyindən yapışıb bir ah çəkirdi, çay quruyurdu... Bala anaya qovuşurdu... Dərəyə ananın gözlərindən ikicə damcı yaş düşürdü, hər damcı bir göl olurdu... Bunlara həsrət gölləri, haray gölləri, vüsal gölləri deyirdilər...».

Dünyagörmüş el ağsaqqalı Göyüş baba gənc gəlinin uğursuz ailə həyatına acıyır, onun yenidən ərə getməsinə qərar versə də, ürəyində körpə Səməndərin atalığı ilə güzəranının heç də xoş olmayacağını bilirdi. Lakin evdə dul qalan gəlinin çəkəcəyi əzablara da dözmürdü. Göyüş baba yazıçının digər əsərlərində təsvir edilən müdrik insanlar kimi, saflıq bulağından su içmiş, xəmiri halallıqla yoğrulmuş obrazlardandır. Belə insanların həsrətini indi cəmiyyət də çəkir, təbiət də. İkici dəfə ərə gedib, Nüsrətlə günü xoş keçməyən gəlinin evə qayıtmasına baba sevinir, onun hərəkətini düzgün qiymətləndirir.

Əsərin sonunda babasının bazarlıq edərkən quzu almağının səbəbini araşdırmağa çalışan Səməndərin: «Babam bişmiş kabab şişinin birinin ucunu ocaq daşına qoydu, sonra yaş əski ilə sildi, sonra da ucdakı tikəni bir az irəli, şişin ucuna çəkdi, şişi mənə verdi, başının işarəsi ilə içərini göstərdi. Fikrini başa düşdüm. Demək babam anamın evə qayıtması münasibətilə qurban kəsmişdi, ilk tikəni də anam yeməlı idi» – söyləməsi babanın xeyirxah əməlinə aydınlıq gətirir. Budur, azərbaycanlı ağsaqqalın müdrikliyi, kişilik etikası, ali insaniyyətlik nümunəsi...

Göyüş baba ətrafında baş verən dəyişikliklərə-iqtisadi inkişafla bağlı ekologiyanın korlanmasına, canlı dəniz dünyasının məhv olmasına biganə qalmır. Gəmilərdən suyun üzünə tökülən neft damlalarını görəndə də açıq-aşkar təşviş keçirir: « – Ay mənim oxumuşlarım, ay ali savadlılarım, heç bilirsinizmi bu damcılar nələr eləyir? Damcılar birləşir, dənizin üzünü tutur, balıqlar havasız qalır, çoxu bundan qırılır».

1976-84-cü illər İsmayıl Qarayevin yaradıcılığının ikinci bir dövrünü məhbəs həyatını əhatə edir. Möhkəm iradə, güclü inam, insan hisslərini bədii obrazlarında ustalıqla dilləndirmək bacarığı, Vətən, torpaq, ədalət, ailə və cəmiyyət arasında mənəvi tarazlıq, vəzifə və ictimai borc mütənasibliyi, nəhayət, məhbəs pəncərəsindən azad həyatı duymaq, cəmiyyətdə baş verən dəyişikliklərin nəbzini tutmaq, yeniliklərin dinamikasına qarşı həssaslıq İsmayıl Qarayevi burada da rahat buraxmamışdır.

Həbsxana həyatı, kriminal aləm İ.Qarayev üçün yeni mövzular poliqonuna çevrilir.

Nüşabə Məmmədli «Zamanı qabaqlayan yazıçı» başlıqlı məqaləsində qeyd edir ki, «düşdüyü məkan yazıçını daha da püxtələşdirdi, görüb bilmədiklərindən hali etdi. Cəmiyyətin

daha nəyə qadir olduğunu, daha hansı eybəcərliklərə düçar qaldığını, həyatda ədalətin necə kölgədə qaldığını, cəmiyyətin bir damla duru suyu dərhal necə asanlıqla çirkaba qovuşdurduğunun daha yaxından şahidi oldu və fasilə vermədən yazmağa davam etdi».

İsmayıl Qarayevin yaradıcılığının ikinci dövrünə diqqətlə nəzər salsaq onun müxtəlif mövzularda qələmə aldığı bir çox əsərlərinin süjet xətti, qəhrəmanlarının həyat yolu yazıçının öz ifadəsi ilə desək həbsxana həyatının «küçələrində kəsişir». Əslində bu mövzuda 1980-81-ci illərdə «Bir kəndin soraqları» romanını yazmışdır. Əsər sonralar, 1994-cü ildə «Yazıçı» nəşriyyatı tərəfindən «Dağlar dağımdır mənim adı ılə nəşr olunu. Ailə-məışət məsələlərinin təsviri ılə başlanan romanın sonrakı fəsillərindəki hadisələr həbsxana divarları arasında davam edirdi. Romanının qəhrəmanlarından biri Miri dostu İfdarı nahaq həbsdən qurtarır.

«Sxodka» romanı kriminal həyatdan bəhs edən, mürəkkəb xarakterli cinayətkar personajların psixologiyasının dərinləklərinə varan bir əsər olub, yazıçının digər yaradıcılq nümunələrindən kəskin surətdə fərqlənir. Süjet xəttinin mürəkkəbliyi, həbsxana həyatının, məhbus dünyasının özünəməxsusluğu, burada cərəyan edən hadısələrin real təsviri, həbsxana «prokurorlarının» və «məhkəmələrinin» xoşagəlməz fəaliyyəti, «içəridə» yatan ayrı-ayrı insanların özünəməxsus xarakterlərinin açılması və s. baxımından roman əvvəllər qələmə alınmış heç bir əsərə bənzəmir. Romanın yazılması 1984-cü ilin sentyabr ayında başa çatsa da, onun nəşri yalnız 2000-ci ildə mümkün olmuş, elə həmin ildə də Nadir Ağasiyevin tərcüməsi ilə rus dilində oxuculara təqdim edilmişdir.

Roman haqqında yazıçının yaxın dostu, «Yadımda bir İsmayıl var» adlı xatirənin müəllifi jurnalist Sərdar Mehdiyev İ.Qarayevin «...həbsxana həyatından roman yazıram... həmin romanın baş qəhrəmanı elə özüməm...» sözlərini yada salır.

İ.Qarayev «Sxodka» romanını həbsxana otaqlarının təsviri ilə başlayır və əsərin qəhrəmanı Yavəri oxuculara təqdim edir. Həbsxana jarqonunda «Praşlyak» adlandırılan Yavər özünün qəddarlığı, qaniçənliyi, heç nəyə güzəşt etməyən alçaqlığı ilə fərqlənən bir tipdir. Yazıçı Yavərin həyat tarixçəsi ilə oxucuları tanış edir, onun həbsxanaya düşməsinin səbəblərini göstərir: qumarbazlıq, anaşa satışı və ondan istifadə, adam öldürmək və s. Heç bir faydalı əməklə məşğul olmayan Yavər düşünür ki, bu necə bərabərlikdir? Sənin hər şeyin olsun, mənim yox? Axı sən də hamı kimi insansan. Sənin yaşıdların şahdır, nazirdir, hakimi-mütləqdir, sən yox. Bu əqidə ilə yaşayan Yavər də bir zaman «pristupnıy mir»in kralına, şahına çevrilir. Yavər bir vaxtlar dostluq etdiyi, çörək kəsdiyi Tahircanı, onun həyat yoldaşını Pərixanımı, hələ qırxı çıxmamış körpəsini, Qəndabı, onun qardaşını öldürür və isanı qətlə yetirmək, cinayyət törətmək onun üçün adi bir peşəyə çevrilir.

Yavərin düşüncəsinə görə «dünyanın cəmi canlılarda kələkbazlıq var, fırıldaqçılıq var, haramxorluq var, bunsuz heç kim yaşaya bilməz bu dünyada. Bir –birindən qapmaqdır yaşamaq. Yavərə görə halallıq - acizlikdir, düzlük - əfəllikdir, aza qane ola-ola özünə də, özününkülərə də iztirab vermək biveclikdir, qorxa-qorxa sürünməkdir, göylərdən nicat ummaq avamlıqdır... hamının üzünə şax bax, çünki o, səndən də eyiblidir, heç kimdən utanma, çünki onun biyabırçılıqları hiyləgərliklə pərdələnib, sən sanma ki, ev yıxmayıb o, kiməsə, kimlərəsə quyu qazmayıb o...»

Yazıçı əsər boyu həyəcan dolu, insan qəlbini riqqətə gətirən, onu düşünməyə vadar edən, canlı olduğu qədər də gərgin olan, psixoloji məqamları, neçə -neçə günahsız, saf və təmiz insanların çirkab quyusuna yuvarlanmasının pərdəarxası himayədarlarının simasını açıb göstərir, onları ifşa edir. Bunun üçün təkcə «Sxodka» romanında təsvir edilən prokuror Qara Kələz obrazının hərəkətlərini və onun faliyyətini izləmək kifayətdir.

Qaragöz xalanın halal çörəyi ilə böyümüş, kasıbçılıq ucbatından aspiranturada qalmayaraq işləməyi qərara almış İfdarı əsərdə Xiyal qarı, Miri kişi, Tərminə kimi saf, mərd insanlarla yanaşı, Afat lələ, Mahirə, prokuror, ispalkom kimi tiplər də əhatə edir. «İfdar torpaq şöbəsinə təyinatla baş aqronom təyin edilib işə başladığı birinci günün səhəri, lap tezdən özünü içəri təpən, onun əlini sıxan, «sevindiyindən» «özkəndlisini», «öz qohumunu» ayı qanmazlığı ilə basmarlayıb qucaqlayan Afat oldu... Afat onun üzünə o mənada baxıb gülümsündü ki, heç kimdən çəkinmə, sənin böyüyün də, lap ondan yekələr də mənim kiçiklərimdi...»

Elbrus Şahmar hərtərəfli işlənilmiş Afat obrazının öz bitkinliyi, kamillik və tipikliyinə görə V.Hüqonun «Sıfillər»indəki Javerlə müqayisə edir. İfdar elə ilk gündən Afatın yaltaqlığından iyrənmişdi, hətta onun arvadı Mahirəyə şikayət etmək də istəmişdi. Lakin Mahirədən də ərinə qarşı xəyanətkarlığı görən İfdarın ona qarşı nifrəti ikiqat artmışdı. İfdar Afatın hiyləsini, saxtakarlığını, «onun şərəfinə» təşkil elədiyi ilk qonaqlıq gecəsində görmüşdü. Afatdan «səviyyələr səviyyəsinə» qalxmağı, siyasi «ehtiyatkarlıq»ı əxz etmək əvəzinə bu yuvadan çıxmağa can atır, lakin «bu yuvadan çıxsa da, həmin quyudan çıxa bilmirdi». Əsərin ikinci hissəsinin

sonunda İfdar Afatla həbsxanada görüşməli olur. Gənc ziyalı İfdarı həbsxana divarları arasına gətirib çıxaran nədir? Axı o kolxoz sədri kimi çalışdığı sahədə heç bir yanlışlığa yol verməmişdir.

Sovet sisteminin qayda-qanunlarını, kolxoz təsərrüfatındakı əyintiləri yaxşı bilən müəllif, İfdar kimi təmiz insanların necə tora düşdüklərini, nahaqdan təqsirləndirilərək cəzalandırıldıqlarını ustalıqla təsvir edir. Kiçik bir mükalimədə savadlı, peşəkar bir insanın süni bəhanələrlə necə dolaşdırıldığının şahidi oluruq.

« – Səni nədə təqsirləndiriblər?

– Anbarın birində üç ton taxıl artıq çıxıb, o birindən də o qədər əskik gəlib. Arpada da bir az əskiklik var. Bir maşın buğdanı o anbara yox, bu anbara boşaldıblar, fərq bundadı... Güya, dövləti aldatmışıq, saxtakarlıq eləmişik; üç yüz əlli hektarın əvəzinə, dörd yüz hüktar əkib-becərmişik ki, sentnerimizi qaldıraq. Bizim əkin sahələrimizin çoxundan telefon elektrik xətləri keçir, onların hesab elədikləri o artıq sahə də həmin dirəklərə görədir. O yerləri ölçüb çıxsalar borclu qalmarıq».

Nəhayət, məsələlər aydınlaşdırılır, məhkəmənin hökmü ilə həbs edilən İfdara bəraət verilir.

«Qanlı məktub» romanı II dünya savaşı və sonrakı ilk onilliklərdə yaşamış müxtəlif xarakterli və müxtəlif yaşlı insanların taleyindən söhbət açır. Əgər dörd hissədən – «Mənim dediklərim», «Qocaların dedikləri», «Yaşanın dedikləri» və «Eynulla babanın eşitmələri, söyləmələri»ndən ibarətdir. Əsərin mərkəzində həyat yoldaşı Ağaları ərini müharibəyə yola salıb, uzun illər onun məhəbbətinə sadiq qalan və namusla uşaqlarını böyüdən, yolunu gözləyən Aydın xalanın canlı obrazı dayanır.

İ.Qarayev insan psixologiyasının dərinliklərinə enir, Aydın xalanın keçirdiyi mənəvi-ruhi vəziyyətlərin psixoloji anlarını qələmə alır.

Əhvalatların sonrakı gedişindən məlum olur ki, Ağalar həqiqətən də sağdır. O həmyerlisi Tapdığın arvadının «xəyanətindən» yazdığı yalan dolu «qanlı məktublar»a görə müharibədən sonra kəndə qayıtmıq, Sibirə üz tutur. Sibirdə evlənsə də, «vəfasız» həyat yoldaşını heç vaxt unutmamışdır.

Roman Ağaların ömrünün son günlərində oğlunun onun dalınca Sibirə getməsi, cənazəsinin kəndə gətirməsi ilə bitir. Bununla belə yazıçı romandakı bəzi məqamların düyünlərinin açılmasını oxucuların öz öhdəsinə buraxır.

«İntihar» əsərində müasir cəmiyyətin bəlası hesab edilən, özünə, ailəsinə, eyni zamanda cəmiyyətə xəyanət edən bir əyyaşın həyatını qələmə almışdır.Yazıçı kəndin ümumi təsvirini verdikdən sonra, bir evin həyətinə «girir». «Bir az qabaqda ayıbalasından tikilmiş uçuq, sökük bir ev var. Taxtapuşu yatıb, şiferləri qırıqlanıb. Şiferlərin aralanan yerlərindən yal otları fışqırıb qalxıb. İkigözlü bir evin naxışlı, oyma bəzəkli sürahilərının bəzisi qopub, bəzisi də qocaların laxlaq dişləri kimi o yan-bu yana əyilib. Boş qalmış yerlərindən bilinən dörd pilləli artırmanın yan qollarının arasına qara bir daş qoyulub, daşın üstünə kiminsə bulaşıqlı ayağının bir sıyrım palçığı qalıb, quruyub, kəltənə dönüb... Eyvanın bir tərəfinin mübəndini divarlarda izi görünən sel-su uçurub yerə töküb, milin üçü də bir başını yerə qoyub, onların üstünə döşənmiş qarğılar qırıqlanıb, qarğının üstündən basılmış küləş çürükləşib, bəzisində ot göyərib. Bu millər bir otağın qapısını elə tutub ki, onun altından ürək eyləyib keçmək olmaz. Bu yandakı kəllə otaqda buxarı var. Buxarıda hisli sacayağı, sacayağının üstündə

hisli qazan. Qazanın ağzı açıqdır, içində heç nə yoxdur. Buxarının ocaqlığında da, qıraqlarında da hamısı yanı üstə yıxılmış araq şüşələri, boş konserv qutuları, sümürülüb atılmış quru-qaxac balıq skeletləri...».

Əgər istedadlı bir sənətkar burada təsvir olunmuş mənzərəni və predmetləri kətana köçürsə, gözəl bir rəsm əsəri yarana bilər. Bütün bunlar isə bizə belə bir fikir söyləməyə imkan verir ki, İ.Qarayevin yazıçılıqla bərabər rəssamlıq qabiliyyəti də varmış. Yuxarıda qeyd etdiyimiz kimi bu qəbildən peyzaj və portret təsvirlərinə yazıçının başqa əsərlərində də rast gəlmək mümkündür.

Əsərin sonluğu dəhşətli bir hadisənin təsviri ilə yekunlaşır: ana əyyaş oğluna deyir: «Mən sənə hardan alım gündə beş manatı, aparıb verəsən o zəhrimara, tökəsən qarnına?! Gəlinin paltarları da qalmadı. Ə, sən kişisən?! Kişi də arvadının geyimini satıb kef eyləyərmi?!... Bir həftəydi itmişdin, yenə bir şey oğurlamağa gəldin? Onsuz da nəyimiz qalıb ki! Kaş özün gəlməyəydin, qara xəbərin gələydi, a arsız, namussuz, qeyrətsiz bala!... İndi kimdən alım?! Məni hamıya borclu eləmisən axı... » Quduzlaşmış oğul toxunub anasını yerə yıxır, arvadın başına bir yumruq vurur. Uşağı gəlinin qucağından qapıb başı bərabərinə qaldırır və zərblə yerə çırpır və beləliklə, öz körpəsinin qatilinə çevrilir...Yazıçı bütün bunları ürək ağrısı ilə təsvir edir, əyyaşlığın, iradəsizliyin insanı necə bir faciəyə gətirib çıxardığını göstərir. İltifatın faciəsi ailənin faciəsinə çevrilir. İradəsizliyi onu tədricən bu yola gətirib çıxarır, xəstə, psixi ruhlu, sərgərdan, dilənçi gorkəmli bir insana çevirir, ətrafdakılar artıq onu adam yerinə qoymur. Ağlının korluğunu etiraf edən İltifat özünü cəzalandırmaq üçün intihar etmək istəyir və törətdiyi cinayətə layiq ölüm axtarır...

İ.Qarayev yaradıcılığında diqqəti cəlb edən maraqlı bir cəhəti də onun əsərlərinin qəhrəmanlarının bir-birini təkrar etməməsi, bir-birinə bənzəməməsidir. Bu qəhrəmanların arasında körpə də var, müdrik qoca da, məhbus da var, ziyalı da, fəhlə də var, dövlət qulluqçusu da və s. Hərənin özünəməxsus xarakterik cizgiləri, həyata münasibətləri, intellektual səviyyələri var. Belə obrazlarla zəngin olan əsərlərdən biri də «İnsan var hələ» povestidir. Yazıçı əsərdə müxtəlif xarakteri, müxtəlif peşə sahibi olan insanların həyat tarixçələrini səhifələyir, təsvir olunan hadisələr müasir günlərdə cərəyan etsə də, müəllif vaxtaşırı «çətin günlərə», müharibə illərinə nəzər salır. Əsərdə Müğərrəm kimi el ağsaqqalı, idarə rəisi Şükran, onun həyat yoldaşı Leyla, atası Abazər kimi obrazlarla tanış oluruq. Əsərin əsas süjeti «nə yaxşı ki dünyada xeyirxah adamlar var» ideyasına söykənir. Eyni zamanda, xalq məişətindən, adət-ənənələrindən söhbət açanda da özünü biruzə verir: «...ötən illərdə belə göycəlilər olardı, xəzəl töküləndə şələsi kürəyində, arvad-uşağı yanında, beş-on qoyunu da qabağında aran kəndlərinə enərdilər, birinin daxmasına, tövləsinə sığınardılar, arvadları ona-buna yun darayar, cəhrə əyirər, hana toxuyar, kişilər də gah ellik, gah tayfa malına gedər, bəzən də hər gün bir adamın odununu yarıb dolanar, yazağzı yenə də obalarına köçərdilər. İndi hardadı elə göycəli!», Yazıçı oxucuları bədbinləşməyə qoymur, dünyada yaxşı, mərd, sədaqətli insanların da olduğunu unutmur. Əsərdə mərdlik, kişilik və insanlıqdan söz düşəndə oxucunun gözü qarşısına Müğərrəm kişi gəlir. Yazıçı bəlkə də əsərin adını ona görə «İnsan var hələ» qoyub ki, kişilərin hamısı qırılmayıb hələ, bəziləri yaşayır desin. Müəllif qəhrəmanının həyat yolunun müxtəlif məqamlarını ön plana çəkir: müharibə vaxtı «ev vardı ələk çevrilmirdi, çörək

bişirilmirdi, bir torba unu axşam-sabah suya salıb qaynadıb uşaqlara içirirdilər ki, acından bağırsaqları quruyub bir-birinə yapışmasın». Müğərrəm «aclıq çəkənlərə, bala dərdindən dilənçilik edən analara, ehtiyacı olan bütün kənd camaatına köməyini əsirgəməmişdi. İmkanı oldu-olmadı hamıya əl tutmuşdu.

«El ağsaqqalı, tez-tez öz müdrik aləminin keşməkeşli düşüncələrinə dalan Müğərrəm qəbiristanlıqda da gecələməli olur və o dünyadakılarla söhbət edir: taylarımı çağırıram. Deyurəm a mənə oxşayannar orda da küllənirsinizmi? Orda da çulunuz cırıq, çuxanız sökük, dabanınız çatlaqdırmı? Orda da başınız qapazlıdırmı? Deyirdiniz o dünyalığınız yaxşı olacaq, bu dünyada verməyən o dünyada verəcək, verirmi?» Müğərrəm daha sonra Mirzə Cəlilin «Ölülər»indəki İsgəndər kimi, dost və tanışlarına dirilməməyi məsləhət görür: «...Dirilmə qardaş, dirilmə, təzədən ölmək istəsən, ölə bilməzsən. Arvad-uşaq dolanmağın çəmini tapıb, sən dirilərsən əl-ayaqlarını boş qoyub, qğırlıqlarını yıxacaqlar üstünə, xəcil olarsan, elə canın da yoxdu beş-on gün tab gətirəsən...».

«Bir kəndin uşaqları» əsərində (1989) sovet cəmiyyətinin eybəcərlikləri, məhkəmə və prokurorluq sistemindəki əliəyrilik, hər şeyin pulla alınıb-satılması və s. təsvir olunur. Ailə-məişət məsələləri ilə başlanan əsərin əvvəlində oxucu Mazanın həyat tarixçəsi ilə tanış olur. Cüssəli, sağlam bədənli olduğu üçün kənddə hamı onu «Öküz Mazan» deyə çağırır. Mazan Zöhrə adlı bir kəndli qızı ilə ailə qurur və on övlad yiyəsi olur. Yazıçı Mazanın ailəsində baş verən hadisələri səmimi, saf bir yumorla qələmə alır. Əsərdə canlı xalq danışıq dili, səmimi bir yumorla təqdim olunan Mazan pozğun insanların təsiri ilə həyat yolunu azmış gənc qız Ceyranı öz evinə gətirir, onun tərbiyəsi ilə

məşğul olur, onu ərə verdikdən sonra rahat nəfəs alır, sevinir, bir gənci doğru yola qaytardığı üçün fərəhlənir.

Lakin bir müddət «Troyka Silah»ın yanında «köməkçi» işləyən Mazan «böyüklərin» yolu ilə gedir, xasiyyətini, hadisələrə münasibətini dəyişir, özünə təzə bir «yol» seçir. Dükanda qarovulçu işləyən Mazanın gəliri gündən-günə artır, özünə təzə ev tikdirir, həyətini, bağ-baxçasını, evinin mebellərini təzələyir və s. sosializm pərdəsinin arxa səhnəsinin eybəcərliklərinə uyğunlaşan Mazan oğurluq edir, rüşvət alıb-verir, yalan danışır, «yuxarıların» payını verməyi də unutmur. Yazıçı yaşadığı dövrün, cəmiyyətin ağrılı problemlərinə toxunur. Yolu nəhayət prokurorluğa düşmüş Mazan müstəntiqin «Təzə ev tikmisən, hər şeyin də təzəsindən varındır. Leviy gəlirin yoxsa, bəs bunları nəynən almısan» – sualına belə bir cavab verir: Onda bu hesabnan kənddə adam qalmaz ki... Onda gərək hamını tutub basasınız qoduqluğa...».

Sadə bir Süjet xətti olan «Ağ yuxu» əsərinin qəhrəmanı Tosu matros şagirdi kimi gəmidə işləməyə gəldiyi ilk günlərdə elə fikirləşir ki, atasının vaxtilə dediyi kimi, «gəmi ev-eşiyindən qovulanların yeri» deyilmiş. Müəllif Tosunun uşaqlıq illərinə qayıdır, müharibənin ağır günləri, göy sularda üzmək arzusu, uşaqlığın qaranlıq, fantastik gecələri və arzusuna çatmış qəhrəmanın gəmidə ilk günləri... Müəllif obrazların mənəvi dünyasını ustalıqla açır. İlk dəfə gördüyü Ərkinazın abırsız bir qız olduğunu zənn edən Tosu səhv etdiyini tezliklə başa düşür. Gəmidəki həyat, fırtınalı dəniz, orada çalışanların davranışı onu tamamilə dəyişir. Gənc qəhrəman hətta, burada öz məhəbbətini də tapır. Hələ dumanlı görünən ağ xəyallar getdikcə gerçəkləşir.

«Bu güllər ətirlimi?» əsərində isə müəllif daha mürəkkəb, daha maraqlı hadisələri qələmə alır. Bir tərəfdə iki övlad

böyüdən, təmiz məhəbbətləri ilə sevilən, halal çörəkləri ilə dolanıb fəxr edən Səbzəli ilə Ahəstənin ailəsi təsvir olunur, digər tərəfdə, kömürçü və taksi sürücüsü kimi insani sifətlərini itirmiş, quduzlaşmış insanlar oxucuya təqdim olunur. Əsərin çox maraqlı kompozisiyası var. Səbzəli namuslu, savadlı, əməksevər, idmanla məşğul olan sağlam bir şəxsdir. Əsərin elə ilk sətirlərindən oxucunu belə bir adamın nə üçün həbs olunması sualı narahat edir. Məlum olur ki, iki nəfər onun arvadının namusuna toxunmuşdur. Evinə dönərkən canilərin əlindən güclə xilas olub özünü evə çatdırmış, namusu ləkələnmiş Ahəstənin vəziyyətini, uşaqların ah-naləsini görən Səbzəlinin psixoloji gərginliyi, düşdüyü vəziyyətdən keçirdiyi psixoloji sarsıntılar sənətkarlıqla qələmə alınmışdır. Səbzəli aciz adam deyil, ailəsinin ləyaqətinə uzanmış çirkin əllərin sahiblərinin axırına çıxır, çox çətinliklə də olsa, onlardan birini, taksi sürücüsünü tapır, onu qətlə yetirib, özünü hüquq-mühafizə orqanlarına təslim edir, ikincisini isə tapa bilmir. Səbzəli müstəntiqdən xahiş edir ki, Ahəstəni dindirib, sorğu-suala tutmasın, o əriyib yerə girər, hər nə lazımdırsa, o, özü cavab verəcəyini bildirir. Onsuzda başına gələn hadisədən sonra Səbzəlinin önündə əzab və xəcalətdən özünə yer tapmayan Ahəstə intihar etməyə cəhd göstərmişdir. Əsər maraqlı sonluqla bitir. İstintaq zamanı Ahəstə canini sifətdən tanıyır. Onu həbs edirlər. Səbzəli də həbsdədir, o sevinir ki, adam öldürdüyü üçün ömrünün sonuna qədər burada yatacaq, günahsız Ahəstənin üzünü bir də görüb, ona əzab verməyəcək, ərinin həbsdə olduğu müddətdə Ahəstənin ömrü uzanacaq, o balalarına qıyıb özünü intihar etməyəcək.

İ.Qarayev «Səhər açılır» romanında keçən əsrin əvvəllərində Azərbaycan kəndlərində baş verən hadisələri təsvir etmişdir. Əsərin əvvəlində oxuyuruq: «Cəmilə xala həyətdə

ocaq qalamışdı. Sacda cincilim kətəsi bişirirdi. Atası Mirəli kişi isə Fəttah bəyin nökəri idi, sürünü aparıb yaylağa getmişdi. Gedərkən arvada demişdi ki, arvad heç getməyim gəlmir. Deyəsən dünya qarışacaq, vurhavur düşəcək...» Kənd həyatını yaxşı bilən yazıçı xalq həyatının etnoqrafik mənzərəsini canlandırdıqdan sonra əsas hadisələri qələmə alır, «allahsızların», «papağı ulduzluların» kəndə soxulmalarından, onların qaçaqlarla vuruşmalarından söhbət açır. Əsərin baş qəhrəmanı yeniyetmə Nuru baş verən ictimai hadisələri, hansı tərəfin haqlı olduğunu hələ tam başa düşməkdə çətinlik çəkir. Lakin yazıçı onun tədricən dəyişdiyini parlaq boyalarla təsvir edir, onun dərrakəli, ağıllı, təvəzökar və saf bir gənc olduğunu göstərir. Fəttah bəyin var-dövlətinin, inək-camışının kasıblar arasında bölüşdürülməsi ona bərk təsir edir, sən demə, Fəttah bəy kimi bir adamı belə bir günə qoymaq olarmış. Getdikcə inkişaf edən, bir sıra «nə üçünlərə» caxab tapan Nuru dostu Kamran kimi qorxmaz və cəsarətli olmağa səy göstərir. Kamranın dostu bəyin adamları tərəfindən nahaqdan qamçılanarkən, ona kömək edir, «papağı qırmızılar» gəlir – deyə onları aldadaraq qorxudur. Romanın adı simvolik məna kəsb edir. Finalda uşaqlar «ulduzpapaqlıların» atlarının tərkinə minərək, irəliyə, geniş üfüqlərə baxaraq, günəşin çıxmasına, səhərin açılmasına işarə olaraq, nökər Əlinin dediyi sözləri təkrar edirlər: yəni yeni bir «səhər açılır».

Bəşəriyyət həmişə sabaha, işıqlı gələcəyə ümidlə baxıb. Əsərin qəhrəmanları bu cür ümidlə yaşayan sadə adamlardır. Yazıçı əsasən iki nəslin nümayəndələri ilə bizi tanış edir: uzun həyat yolu keçmiş, ruzigarın hər üzünü görmüş yaşlı nəslin nümayəndələri, eyni zamanda, ictimai hadisələrin gedişindən o qədər də baş açmayan, həyat təcrübəsi az olan gənclərlə.

«Sabaha nə qalıb ki...» əsərinin mövzusu da XX əsr Azərbaycan nəsrində geniş işıqlandırılmış hadisələrlə əlaqədardır. Əsərdə təsvir olunan hadisələrin genişliyi, kənddə sovetləşmə prosesi, varlıların var-dövlətinin, torpağının əlindən alınması, əhalinin buna münasibəti, uzun illər dədə-baba qaydası ilə yaşamağa adət etmiş kəndlilərin yeni hökumətin şirin vədlərinə inanmaması və s. məsələlər, əvvəllər oxuduğumuz bir sıra bədii əsərlərdən fərqlənir. Müəllifin hadisələrə münasibəti, təhkiyəsi, təsvir vasitələri və yazı üslubu tamamilə yeni və özünəməxsusdur:

«Çoban-çoluğun, kasıbın, yağısı qışdır. Yaza, yaya, payıza Allah versin, bu yandan yuyursan, o yandan quruyur, tənbəllik eləməsən əyin-başını həftədə iki dəfə dəyişərsən. Dağların yayı çobandan ötrü cənnətdir o deməkdir ki, paltarını axşamdan tök çaya, üstünü daşla, səhər də dur bir dəfə öykələ, yaxala, sıx, sər döşə, göy otunca üstünə, quruyanda baxırsan heç qaynardan-qazandan keçirilən də belə olmaz, gül kimidir, elə bil dağların suyunda sabun da var. Həm də ürəyin yavanlıq da istəmir, çörəyin bol olsun, duzu bir az artıq düşsə daha yaxşı, ye, qoy yandırsın, ağzını söykə allahın bulaqlarının gözünə, sor ki, sorasan can dərmanı, nə qarnın köpsün, nə kəkliyin azsın, dön quşa sən belədən-belə pilə tütəyi, bala dağlara toy tut, qoy qoca dağların qar papaqlı başları bir az da yuxarı qalxsın, qoy şəlalələr şaqqıldayıb sevinsin, çayların dəlisi «yallı» çalsın ağıllısını oynatsın. Erkəkləri buynuzlaşsın təkələrin kəlləl əşsin, buğaları heykirişsin, sən də get kef çək. Qışda öləsən dağlarda, yazda diriləsən, nə aranın yazını görəsən, nə qar-çovğununu...»

El ağsaqqalları Əli və Vəli babaların maraqlı söhbətləri ilə başlanan əsərin sonrakı səhifələrində yazıçı ictimai hadisələrin gedişinə münasibətini bildirərək göstərir ki, Şura hökumətinin

kənddə yaratdığı birliyə insanların münasibəti eynimənalı deyil. İnqilab ərəfəsində ictimai qüvvələrin tarazlığı pozulur. Bir tərəfdə komsomol Muradlar, digər tərəfdə Bahadır bəylər kimilərin dayandığı bu natarazlıq ikincilərin faciəsi ilə bitir.

İ.Qarayev Bahadır bəyin obrazını yaradarkən, «O varlıdır, deməli, düşməndir» anlamından çıxış etmir, bəyin müsbət xasiyyətlərindən, onun insani keyfiyyətlərindən söhbət açır. Müəllif, heç nəyə fikir vermədən, vurub-dağıdan, yeni dünya quran Murad kimi gənclərlə Bahadır bəyi üzləşdirir, onların söhbətlərini qələmə alır. Bahadır bəy Murada: «Adam kişi olar... Vaxt gələr peşiman olarsan Murad. Dünyanın quyruğu uzundur, görəcəksən bunun da axırını.. siz dediklərinizi onun-bunun ağzından eşidib deyirsiniz, amma biz oxumuşuq onnan, onnarın içindən çıxmışıq. Bir-iki ilə zor-xoş hamının başını bağlayacaq bir yerə, bayaq səxavətlə payladığı torpaqları da eləyəcək birliyinki, camaatı qul kimi işlədəcək, keçmişdə bizim vaxtımızda heç bir adam dinindən-donundan çıxmamışdı, amma sizin zamanda meymuna dönəcək hamısı - arvadlı-kişili» və yaxud «düzünü danışanı öldürməzlər, bolşevik! Siz ki, həqiqətpərəstsiniz, camaata yazıb-pozmaq, ürəyindən keçəni başa düşdüyü kimi danışmaq ixtiyaratı vermişsiniz». Kor-koranə «yeni» dünya quran Muradla «köhnə» dünyanın oxumuş varlı ziyalı nümayəndəsi olan Bahadır bəy arasında verilmiş belə söhbətlərlə tanış olduqdan sonra, sözün əsil mənasında bəy olan Bahadır bəyə qarşı hüsn-rəğbət yaranır.

«Dağlar dağımdı mənim» romanı – yazıçının sanballı, ən oxunaqlı əsərlərindən biridir. Burada onun yaradıcılığının yeni keyfiyyətləri üzə çıxır. Əsər Tahir adlı bir gəncin acı xatirələrilə başlasa da, süjetin mərkəzində yüksək bədii ustalıqla təsvir olunmuş Gülnaz kimi bir obraz durur və bütün hadisələr onun

ətrafında cərəyan edir. Əsərin başlanğıcında Gülnarla Muradxanın tanış olduğu ilk günlər, sevgi dolu təravətli görüşlər qələmə alınır. Müəllif Gülnazın portretini cızdıqdan sonra kənddə baş verən hadisələrin real təsvirini oxuculara təqdim edir. Muradxan şəhərdə milyondan bir adama nəsib ola biləcək Mila adlı bir «gözələ» rast gəlir. Onun üçün indi dünyada iki xoşbəxtlik var» biri çoxli pul, ikincisi, «dünya gözəli» Mila. Müəllif əsərlərinin əksəriyyətində qadın-ana obrazını yaradarkən, onu müqəddəsləşdirir, onu ləyaqətli gəlin, sədaqətli həyat yoldaşı, mehriban ana, ailəni idarə edən tərbiyəçi kimi ön plana çəkir, onu Azərbaycan qadını üçün xarakterik olan zəngin keyfiyyətlərlə oxucuya təqdim edir. Burada təsvir olunan Gülnaz da müəllifin sevə-sevə yaratdığı belə obrazlardan biridir.

Gülnazı C.Cabbarlının Seviliylə müqayisə etsək, deyə bilərik ki, o da əsərin əvvəlində başıaşağı, abırlı-həyalı, ərinə, ailəsinə sədaqətlə qulluq göstərən, ərinin bütün göstərişlərinə dinməzcə itaət edən, hətta Milanın öz evinə gəlməsinə razılıq verən müti bir qadındır. Milaya başı qarışan Muradxanın bu «sevgisindən» hələ xəbərsiz olan, öz ismət pərdəsinə sığınan Gülnaz ərinin yatağının yanında çox dayanmağa belə qorxur, düşünür ki, «kişinin acığı tutar, elə bilər onu «təntidib arvadlığı». Lakin dinamik bir obraz kimi təsvir edilən Gülnaz, həyat dəyişdikcə, dəyişməyi bacarır, öz iradəsini toplayıb ayağa qalxır, başqalaşır, kolxoz idarə heyətinə üzv, təftiş komissiyasına sədr seçilir, ictimai həyatda fəal iştirak etməyə başlayır, kənddə heç bir məsələ onsuz həll edilmir. Rayon qəzeti onun haqqında «Ölkəmizin iftixarı», «Ecazkar istedad», «Elimizin fəxri» kimi məqalələr dərc edir. Üzündən ilan sancmış Muradxan əsərin sonunda pis vəziyyətə düşür, sir-sifəti tamam dəyişir, Mila onu qəbul etmir: «Ya tebe praşu, ne podxodi ko

mne. Umalyayu nikoqda... Slışış? Nikoqda!... Vsyo!» – deyə Mila ondan canını qurtarır. Bəs Muradxan hara getsin? Əsərin orijinallığı ondan ibarətdir ki, burada Sevildən fərqli olaraq, Gülnaz Muradxandan imtina etmir, «öz cəzandır çək» demir, özündə iradə tapıb ilk məhəbbətinə sadiq qalır, uşaqlarının atasını bir ər kimi qəbul edir, ona yazığı gəlir: - «Arvadlıq belə gündə lazımdı kişiyə!» – deyə düşünür.

Əvvəlki povest və romanlardan fərqli olaraq, İ.Qarayev «Şirzad kişi» əsərində tamamilə yeni bir mövzunu qələmə almışdır. Yazıçı müxtəlif həyat yolu keçmiş, bir-birinə oxşamayan, müdrik yaş həddinə çatmış iki insanın – raykom katibi Süsən xanımın və bağban Şirzad kişinin taleyindən söhbət açır. Əsər qəhrəmanlarının həyatda tək qalmalarının da səbəbləri müxtəlifdir. Süsən xanım ictimai vəzifə sahibidir. Gəncliyində o səhərdən axşama qədər öhdəsinə düşən dövlət vəzifələrini yerinə yetirib, bütün qüvvə və bacarığını işə sərf edib, illər, aylar bir-birini əvəz edib, bir də başı ayazıyıb baxanda hiss edib ki, artıq 50-ni haqlayıb, yaşlanıb. Vəzifə, ictimai iş onu analıqdan, qadınlıqdan uzaqlaşdırıb, körpə nəfəsinə həsrət qoyub. Vaxtilə çoxları ona meyl salmaq istəmişdilərsə də, raykom katibinin hökmü, «Toxunulmazlığı» onları bu fikirdən yayındırmışdır. Süsən subay qalmışdır. Əslində bağban Şirzad kişi də Süsən kimi təkdir. Müəllif bu iki insanın arzu və istəklərini oxucularla bölüşür, onların arasındakı təmasın yaranmaqda olan hərarətini təbii, saf hər cür bayağılıqdan uzaq səmimi insan hissləri kimi qələmə alır. Ana olmaq, körpə nəfəsi duymaq indi Süsən üçün bir bəxtəvərlik sayılır. Partiya mötəbərləri bağbanla dostluq etdiyinə, onunla gəzməyə çıxdığına görə Süsəni qınayırlar. Müəllif tənha daxmasına sığınmış Şirzad kişinin mənəvi dünyasını bədii təsvir vasitəsilə canlandırır və bu dünyanın

xoşbəxtlik açarını Süsənin düşüncələrində axtarır. Əsərin finalı maraqlı bir sıhnə ilə bitir. Süsən anası Məlakə xanımla birgə bəzədikləri süfrə başıbda Şirzad kişinin sağlıöına badə qaldırıb, «arzuna çatasan» deyəndə, Şirzad kişi birtəhər olur, ürəyini, qəlbini araşdırır, deyir, «axı mənim nə arzum var, əvvəllər çox idi, hamısı da ötən günlərlə getdi..» Süsən gözləri gülə-gülə onun üzünə baxıb deyir: «Mən bilirəm nə arzun qalıb!»

İsmayıl Qarayevin yaradıcılıq axtarışları, intellektual səviyyəsi, Azərbaycan xalqının milli xüsusiyyətləri, adət-ənənələri, tarixi keşmişi və zəngin mədəni irsi üzərində köklənir, ali məqsədə - canlı insan xarakterləri yaşatmaq arzusuna nail olur. Bu canlı insan obrazları qaleriyasını yaşadan həmin hekayə, povest və romanlar bu günümüz üçün tərbiyəvi əhəmiyyət kəsb etməkdədir.

«Budaqlar» romanı oxucunu özünə cəlb edən, mükəmməl bədii obrazlarla zəngin olan, real həyat hadisələrinin bədiiləşmiş canlı mənzərəsini yaradan əsərlərdən biridir. Yazıçı əsərdə cəmiyyət və şəxsiyyət, ailə və tərbiyə problemləri, azadlıq və həbsxana mühiti və s. bu kimi aktual məsələlərə toxunur. Müəllif cəmiyyəti narahat edən problemləri ön plana çəkir, müxtəlif xarakterli insanların talelərinin təsvirində onların həlli yollarını axtarır. Bir ailənin tarixçəsini təsvir edən yazıçı hadisələri dar coğrafi çərçivədə saxlamır, onları ailə divarlarlndan çıxarıb həyatın müxtəlif qütblərinə, cəmiyyətin müxtəlif təbəqələrinə doğru inkişaf etdirir. Onlar iki qardaş bir bacı idilər. Böyük qardaş Qonaq – ata-ananın ilki, Budaq – sonbeşik idi. Ata-ana bu pöhrələri yarı yaşdan keçəndən sonra tapmışdılar. Qonaq dəcəl, ipə-sapa yatmayan, amma çox dərrakəli, qavrama qabiliyyəti güclü bir uşaqidi. Bütün dərslərdən qiymətləri əla idi, təkcə əxlaqdan başqa. Bu fəndən də ona xatası bizdən uzaq olsun

deyə bir «üç» yazırdılar. Çünki müəllimlərin də artıq bezdiyi, valideynlərinin nazı ilə böyüyən və heç kimin bacara bilmədiyi Qonağın məktəbdə döymədiyi, kəllə vurub ağız-burnunu qanatmadığı tək-tək uşaq qalmışdı. Nəhayət ipə-sapa yatmayan bu yeniyetmə oğurluq edir, həbsxanaya düşür. İ.Qarayev uşaq psixologiyasını yaxşı bilən bir pedaqoq-müəllim kimi ailə tərbiyəsindən, məktəb və tərbiyə məsələlərindən uzun-uzadı söhbət açmır, bu sahədə buraxılan səhv və nöqsanları məktəb və ailənin simasında açıb göstərir.

Qonaqdan sonra əsərdə daha çox diqqəti cəlb edən və yadda qalan obrazlardan biri də Dilişdir. O, Qonağa olan məhəbbətinə sadiq qalır, onun həbsxanadan çıxacağı günü səbrsizliklə gözləyir. «Ana ürəkli, kişi qeyrətli gəlin» kimi o, Qonağın anasının qayğısını çəkir. Qonaq isə həbsxana sakinləri kimi, qəddar, qatı cinayətkarlar dünyasına qovuşaraq, onun «lider»inə çevrilir və bu saf «adadan» – Dilişin məhəbbət dünyasından üzaqlaşaraq məhbəs həyatının məhvedici «fırtınalarında» qərq olur. Əsərin sonunda Qonaq cəza müddətini bitirərək evlərinə qayıdır. Lakin, bu Qonaq artıq əsərin əvvəlində gördüyümüz qonaq deyil, onda insani hisslərdən əsər-əlamət qalmamış, mənəviyyatı cinayətkar mütitin dünyagörüşü ilə zəhərlənmişdir. Lakin qəribə olsa da, müəllif Qonağı oxucuya elə təqdim edir ki, ona nifrət etmək əvəzinə, sanki, onu bu hala gətirən cəmiyyətə, ətraf mühitə nifrət etməli olursan. Axı, yaxşı bir münasibət, düzgün tərbiyə, onu əhatə edən insanların diqqət və qayğısı, Qonağı xeyirxah, öz halal zəhmətilə dolanan namuslu bir insana çevirə bilərdi.

2008-ci ildə yazıçının «Çinar-Çap» nəşriyyatı tərəfindən buraxılmış «Səciyyə» və «Məni bağışlarsanmı?» adlı kitablarında ədibin bu günə qədər heç yerdə dərc edilməmiş

«Səciyyə», Baş ağrısı», «Haqq divanı», «Ömrün bir gecəsi», «Sevinc», «İndi inandınmı», «Hara gedirsiniz?», «Casus», «İki tale», «Xəyanət» və s. pyesləri oxuculara təqdim olunmuşdur. Bununla belə, yazıçının «Dağlıar qızına məktub» (Çinar-Çap, 2008) kitabında «Dalğıclar», «Mavi yollarda», «Haray» adlı ssenariləri də verilmişdir.

Yazıçının yarımçıq qalmış «Hara gedirsiniz?», «Casus», «İki tale», «Haqq divanı» pyesləri şair Dilsuz tərəfindən tamamlanaraq nəşrə təqdim edilmişdir.

Həcmi o qədər də böyük olmayan «Hara gedirsiniz?» adlı telepyesdə kənd həyatının təsviri, gənclərin təhsil problemləri, onların kəndi tərk edib şəhərə üz tutmaları bir problem kimi qələmə alınmışdır. «İki tale» pyesində isə yazıçı sovet səhiyyə sistemindəki əliəyrilik, rüşvətxorluq və digər neqativ halların fəsadlarından söhbət açır, diqqəti cəlb edən, maraqlı Hacıyev, Sərxanlı, Leyla, Lətif vəs. obrazlarla oxucuları tanış edir. İki personajı olan «Məni bağışlarsanmı?» radiopyesində müəllif insan psixologiyasını, onun mənəvi aləmini ön plana çəkir, müxtəlif xarakterə malik Pəri və professorun yaddaqalan obrazlarını yaradır. Orijinal quruluşlu əsərdəki hadisələr professorun evində başlayır və orada da sona çatır.

Yazıçı Nüşabə Məmmədlinin dediyi kimi, «Mənim aləmimdə İ.Qarayevin əsərləri ayrı-ayrılıqda təhlilə gəlmir. Çünki bu əsərlər həyatın özünün təhlili və təbii siması olduğu üçün yenidən təhlilə ehtiyac qalmır. Əks təqdirdə, onu təqlid etmiş olarsan. Bu isə İ.Qarayevin əsərlərinə münasibətdə ən azı günahdır.

Yazıçı İ.Qarayevin yaradıcılığı haqqında qızı Vəsimə xanım yazır ki, ürəyi dərd yuvası, qəm ocağı olsa da, sağlamlığı bahasına zülmətdə - həbsxana divarları arasında 10 roman, 40-

dan artıq povest, 100-dən çox hekayə, novella, mənzum dastan və s. yazmışdır. Qələmə aldığı hər yeni əsərlərilə bizdə bir inam yaratmışdır. İnandıq ki, qarlı qışdan sonra günəşli yaz gəldiyi kimi, onun adını, əsərlərini donduran «şaxta»dan sonra da mütləq, bahar «günəşi» çıxacaq, bu «günəş» onun əsərlərini donduran «buz»u əridəcək, ədəbi dünyanı körpə, yaz fidanları kimi cücərdib oxuculara çatdıracaq».



«Günəşli yazın», «şaxtadan sonrakı isti havanın» görə bilmədiyi «işi» sonralar yazıçının övladları, xüsusilə mərhum oğlu Qoşqar Qarayev uğurla yerinə yetirdilər. Onların böyük zəhməti nəticəsində son illərdə ədibin 70-dən artıq kitabı işıq üzü görmüşdür. Dünyasını vaxtsız dəyişmiş İsmayıl Qarayevin nəşr olunan hər yeni kitabı oxucu tərəfindən maraqla qarşılanmaqla bərabər, övladlarının da qaranlıq dünyalarına işıq salır, onlara təsəlli olur.

Qoşqar Qarayev adı neçə-neçə uğurlu layihələrin, rəhbərlik etdiyi «Çinar-çap» və «Qapp poliqrafiya» nəşriyyatların adında yaşayır. O da atası İsmayıl Qarayev kimi «...ümumilikdə Vətən balalarının gələcəyinə, dünyagörüşünə, tarix bilgisinə, özünü tanımasına və vətəninə olan sevgisinə həqiqətən də böyük önəm verirdi. Uşaqların öz tarixini, babalarının tarixini öyrənə-öyrənə böyüməsini arzulayırdı» (Aysel). http://qafqazinfo.az/news/detail/omrunu-kitablara-baglamis-insan-1368

Xanım İsmayılqızı gənc yaşlarından bədii yaradıcılıqla məşğul olmuş, ilk şeri «Yol» qəzetində dərc olunmuşdur (1991). Qələmini poeziya, publisistika və tərcümə sahəsində sınamışdır. 1979-cu ildən jurnalistlik fəaliyyətinə başlamış, dövrü

mətbuatda məqalə, oçerk və esseləri dərc olunmuşdur. AzTV-də və ilk müstəqil telekanal olan BMTİ-də «Dünyam qəfil işıqlansa» adlı müəllif verilişi ilə çıxış etmişdir (1992-1993). Bəstəkar kimi ilk işi «Sevgimizi qoruyaq»dır (1994). 300-dən çox mahnının müəllifi olan Xanım İsmayıl qızının atası İsmayıl Qarayevə həsr olunmuş bəstələri də vardır.

Yazıçının digər övladı Vəsimə İsmayılqızının yazdığı kimi: «...hər gün pillə-pillə, alçala-alçala yüksələnlər, həyatı çirkab, özləri alçaq, sözləri, hərəkətləri ifunət qoxulu, qara qarğalar kimi üç yüz il mənasız ömür sürən bu «güclülər» yenə də sancmışdılar, alçaltmağa çalışmışdılar səni. Lakin özləri də hiss etmədən sənin qartal vüqarın, əzəmətin qarşısında alçalmışdılar». Qartal vüqarlı atanın övladları da onu vətən sevgisinin, poetik duyğular aləminin həqiqi varislərdirlər... biri nəşr etdiyi kitablarla, doğma kəndində erməni gülləsindən aldığı yaralarla, biri sətirlərə düzdüyü vətən təəsübkeşliyi dolu fikirlərlə, digəri həzin notlara köçürdüyü xatirələri ilə... İsmayıl Qarayevin qələmə sarılmış ömrünü yaşadır...

İsmayıl Qarayevin necə insan, necə bir yoldaş, qələm sahibi olduğu haqda yazıçı-jurnalistlərdən Şamil Fərzəliyev, Aqşin Babayev, Elbrus Şahmar, Sərdar Mehdiyev, İlyas Tapdıq, Tofiq Mahmud və b. ziyalılar xatirə və məqalələrində öz fikirlərini bölüşmüşlər.

Bütün bu qeyd edilənlərə baxmayaraq, yazıçı İsmayıl Qarayevin ədəbi irsi qapıları ədəbiyyat tariximizin üzünə açılmamış və elmi- araşdırılmasına ehtiyacı olan bir xəzinə olaraq qalmaqdadır.

**P.S.** Sözümüzü İsmayıl Qarayev adlı yazarın sənətkar qələmiylə yazılmış bir neçə nümunələrlə tamamlamaq istədik:

«...Dağ çayının belə bir xüsusiyyəti var, onun qarşısını almaq, axarının istiqamətini dəyişmək istəyi ilə bəndlər, hasarlar çəkilsə belə, o yenə özü üçün yol tapacaq! Bütün istedad sahibləri də belədir! Onların əlindən qələmləri alınsa da, müəyyən bir dövrdə ilham pərisini cilovlamaq mümkün olsa da, onun alovlanıb yanan yaradıcılıq eşqini tam şəkildə söndürmək mümkün deyil.

*Xırda var – yerində bir irilikdir.*
*İri var – xırdadan gerilikdir.*
*Mənim ölməyim də bir dirilikdir.*
*İnanma dünyadan tamam köçəm mən.*

Özün arifsən ağıllı balam! Axı biz gedəcəyik, bu gündən çıxdaşıq, dünya yazı-pozusundan silinməyimizə nə qalıb ki, amma siz təzə kağızsınız, hələ innən sonra yazılacaqsınız. Elə yazılın ki, özünüz özünüzü elə yazın ki, bir ildən, beş ildən sonra pozulmayasınız, bir də ağarmaq olmur, bir də ağ kağıza dönmək olmur, silirsən sarısı qalır, qaralanır, qara-quraya boyanır. Ömrün də kağız üzü kimi minası var, qopdu, sürtülüb getdi - əsgiyə oxşayır, gözü çəkmir özünə, sözü çəkmir özünə, ürəyi açılmır. Ömür-gün yaylaq-qışlaq köçü deyil ki, örüşə görə, axar-baxara görə yurd seçəsən... »

**«Budaqlar», B., 2003, s.254.**

«...Yenə də çillələr gələcək – böyüyü, kiçiyi, sonrası boz aydı, həmişə yoxuşdasan, həmişə dırmaşırsan, zirvəyə çataçatda əlinmi, əlindəkimi qopar, yoxuşun dibinə düşürsən. Bir də başlayırsan qalxmağa, bir də gəlirsən, enirsən dərinə. Ömrün boyu yıxılırsan, qalxırsan, bir də... bir də... Belə bir oyuna qarışır başın...»

***«Bir kəndin soraqları», B., 2004, s.224.***

«Dedilər yaman yeldir – ağaclara baxdım, yarpaqlar tərpənmirdi, amma evlərdən atalar gedirdi. Neçə yastıqlar baçsız qalırdı, kənddə kişi qaraltısı, kişi kölgəsi azalırdı.

Dedilər yaman seldir – göylərə baxdım, bulud yox idi, evimizin yanından axan çaya baxdım suyu bulanmamışdı, amma anamın hər səhər çaydan gəldiyini, üzünü yuyub gəldiyini görürdüm. Görürdüm ki, gözləri şişib papaga dönüb. Görürdüm ki, gözləri qızarıb, küləkli, yelli, sazaqlı səhərinin əsəbi açılışına dönüb. Dedilər yaman gəlirlər – yollara baxdım, beş-on evin qabağından, dalından utana-utana ötən seyrək, döğanaq kişi kölgələrinin də getdiyini gördüm. Vaxtsız yarpaqlar kimi qopub tökülən sarısaç sarı uşaqların gətirildiyini gördüm. Bu gecə yarı bu sarı yarpagın birini də ananın yanında gördüm. Anam dirsəklənmişdi. Qolunu başına dayaq verib gözlərini yummuşdu. Bu sarı uşaq bir əlini anamın qoynuna qoymuşdu. Gülümsünürdü. Birdən dodaqları büzüldü, umaxşıdı, anamı qucaqlayıb qışqırdı: Mama!... Anam dik atıldı, onu sinəsinə sıxdı: Can mama!... Qorxma, Tanya, qorxma!...»

***«O və mənim anam», B., 2004, s.88.***

«Ana ayrı şeydir. Bu halımda mənin də anam olaydı, başımı dizlərinin üstünə qoyaydım, deyəydim, ana, mən bir layla de, beşiyinə qayıdım mən, bircə yuva ev eşiyimə qayıdım mən, körpə olub köksündə dağa gedim, biz gedəndə çiçəklərlə üzü gülsün yaylaqların, biz köçəndə gözü dolsun bulaqların. Ana mənə bir nağıl de, bu dünyadan əkilək biz, nağıllara çəkilək biz! Diri olaq görünməyək, boğazlığa, əyinliyə sürünməyək...»

***«Şirzad kişi», B., 2003, s.29.***

«Biri anasının «öldü»sünü eçidib ağlamışdı, gözlərinin hər damcısı bir qırma buza dönüb ətinə yapışmışdı, siləndə dərisini qoparmışdı. O gündən bəri «açıq havada» heç kim ağlamır. Başımızın üstündəki göy həmişə boz olur, biz gələndən hələ dəyişməyib, yer də dümağ. Ayrı rəng görmürük, bir-birimizə dəfələrlə danışdığımız, özümüzün belə zəhləmiz gedən başqa bir cəng eşitmirik, məktub alırıq. Ən kiçik, ən qısa məktub bizdən ötrü ən böyük əsər olur, ən qalın kitab olur, hey oxuyuruq, qurtarmır. Mənim əsərin, kitabım isə hamınınkından uzundur, bitməz, tükənməzlik suyu içib...»

***«Saralmış yarpaqlar», B., 2003, s.29.***

«Köhnə bir dənizçi deyib ki, mənə
Sahilə dənizdən ümmanlar gələr.
Deyib ki, görmüşəm qoca dünyada
Yamanın yaxşıyla yovuşmağı var.
Dənizdən ayrılan damcıların da,
Yenidən dənizlə qovuşmağı var.
Bir zaman geriyə dönəcək gəmi,
Gözlər də sevincdən yağışlanacaq.
Qollar açılacaq qapılar kimi,
Baxışlar gəmiyə bağışlanacaq».

***Ərşad Hüseyn. Dəniz düşüncələri //Kirovabad kommunisti, 1972, 12 avqust.***

## İstifadə edilmiş ədəbiyyat:


1. *Qarayev İsmayıl. O və mənim anam. – Bakı Azərnəşr, 1964. – 96 s.*
2. *Qarayev İsmayıl. Əməyin bəhrəsi. – Bakı: Azərnəşr, 1972. – 32 s.*
3. *Qarayev İsmayıl. Dağlar dağımdır mənim. – Bakı: 2003. – 260 s.*
4. *Qarayev İsmayıl. Sxodka. Bakı: 2000. – 136 s.*
5. *Qarayev İsmayıl. İnsan var hələ. – Bakı: 2002. – 44 s.*
6. *Qarayev İsmayıl. O və mənim anam . – Bakı: 2004. – 119 s.*
7. *Qarayev İsmayıl. Getmə oğul. : Poemalar və şeirlər. – Bakı: 2007. – 168 s.*
8. *Qarayev İsmayıl. Sabaha nə qalıb ki. – Bakı: 2007. – 284 s.*

***

9. *Babayev Aqşin. Onunla dost idik // Bakı_ 1997. – 02 fevral.*
10. *Cabarlı Nərgiz. «Damcılar»dan damcılar // Ulduz. – 2005. – 12. – s. 40-41.*
11. *Əfəndiyev Ə.Əliyeva Z. Qələmə sarılmış ömür.Biblioqrafiya. – Bakı: 2008. – 218 s.*
12. *Əlimirzəyev X., Abdullayev C. Üç povest haqqında bəzi qeydlər // Azərbaycan gəncləri. – 1965. – 16 may.*
13. *İsmayıl qızı Vəsimə. Sənin həsrətin // Qarayev İsmayıl. Dağlar dağımdır mənim. – Bakı: Yazıçı, 1994. – s.240-244.*
14. *İsmayıl qızı Vəsimə. Goranboy. Ensiklopedik toplu. Bakı: İsmayıl NPM, 2000. – s. 473-475.*

15. *Mehdiyev Sərdar. Yadımda bir İsmayıl var // Zaman qəzeti. – 1995. – 23 avqust.*
16. *Ölüm və ölməzlik // Azərbaycan gəcləri. – 1990. 0 21 iyul*
17. *Şahmar Elbrus. Bəxtin İsmayıl qurbanı // Elbrus Şahmar. Məhəbət Allahın əmanətidir. – Bakı: 1995. – s.76-82.*
18. *Tofiq Mahmud. Ulduz hər zaman parıldamır // Ədəbiyyat və incəsənət. – 1990. – 22 iyun.*
19. *Aysel. Ömrünü kitablara bağlamış insan… http://qafqazinfo.az/news/detail/omrunu-kitablara-baglamis-insan-1368*

**Zakirə Əliyeva**
*filologiya üzrə fəlsəfə doktoru*
*zakiraalieva@rambler.ru*